Xalqın qəzeti!

# Xalq qəzeti

№ 002 (30406) 9 yanvar 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Bugünün Bakısından sabahın modern meqapolisinə

## Yeni Baş Plana əsasən, 2040-cı ilədək paytaxtın siması başdan-başa dəyişəcək

**Bakı şəhərinin 2040-cı ilədək inkişafı çoxmərkəzli inkişaf strategiyasına əsaslanacaq. Bu məsələ paytaxtın yeni Baş planında əksini tapıb. Sənədin əsas məqsədlərindən biri Bakının mərkəzi hissəsinin yüklənmədən azad olunmasından ibarətdir. Bu da şəhərətrafı ərazilərin cəlbediciliyinin artırılmasını və gücləndirilməsini, iqtisadiyyatın şaxələndirilməsini, mənzil fondunun müasirləşdirilməsini, eləcə də xidmət səviyyəsinin yüksəldilməsini özündə ehtiva edir.**



Baş plana əsasən, paytaxtın ötən dövrdə formalaşmış mərkəzi əraziləri, yeni, şəhər nüvəsini əhatə edən Bakının Mərkəzi Planlaşdırma Rayonunun konkret sərhədləri müəyyən edilib. Şəhərin tarixi simasına xələl gətirməmək məqsədilə bu rayonun hüdudları daxilində yerləşən ərazilərdə aparılacaq gələcək inkişaf tədbirləri üzrə müəyyən qaydaların tətbiqi planlaşdırılır. Sənədə əsasən, şəhər ərazisində Mərdəkan və Ələt olmaqla iki regional və 4 alt-mərkəzin (Zığ – Hövsan, Sabunçu, Binəqədi və Lökbatan) yaradılması nəzərdə tutulur.

Baş planın hazırlanması zamanı əhali proqnozları əsasında aparılmış hesablamalara görə, 2040-cı ilədək Bakıda, təqribən, əlavə 142,82 min mənzilə tələbat yaranacaq. Əhalinin mənzil tələbatının ödənilməsi üçün inşa olunacaq bina və evlər üçün, təqribən, 9 min hektar sahə nəzərdə tutulub ki, burada da 200 min mənzilin inşası mümkün olacaq.

*(ardı 7-ci səhifədə)*

# Yüksələn və yenilәşən Azərbaycan



**2023-cü il ölkə həyatında mühüm islahatlar dövrü kimi yadda qaldı. Müasir iqtisadi yanaşmaların diqqətdə saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin gücləndirilməsi, vergi və gömrük sistemində köklü dəyişikliklər edilməsi, şəffaflığın artırılması kimi mühüm addımlar atılması respublikada dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafı daha da sürətləndirdi. Bütün bunlar möhkəm təməllərə əsaslanan milli tərəqqi modelinin tam olaraq formalaşdırılmasını şərtləndirdi.**

Belə bir şərait isə 2024-cü il və ortamüddətli dövr üçün nəzərdə tutulan büdcə siyasətinin müəyyənləşdirilməsində əsas rol oynadı. Həmçinin bu zaman icrasına 2022-ci ildə başlanılan və hazırda da uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası diqqət mərkəzində saxlanıldı. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidənqurulması, eləcə də Böyük Qayıdışın reallaşdırılması üzrə tədbirlər planlarına prioritet istiqamətlər kimi yanaşıldı.

*(ardı 7-ci səhifədə)*

# Avantüranın otuz ikinci ili

## "Girdman–Şirvan–Naxçıvan" ümumermәni birliyi ilə Ermənistan hakimiyyətinin "ideya" yaxınlığına sözardı



**Ermənistanda sərsəm bir təşkilat var. Adı belədir: "Girdman–Şirvan–Naxçıvan" ümumerməni birliyi. Bu birlik Dağlıq Qarabağın müstəqillik bəyannaməsi adlanan saxta sənədin qəbulunun 32-ci ildönümü münasibətilə bəyanat yayıb. Əlbəttə, məsələyə reaksiya vermək, bəlkə, bir o qədər yerinə düşmür. Ancaq iş ondadır ki, bu bəyanatı Ermənistan dövlətinə məxsus "Armenpress" informasiya agentliyi yayıb. Deməli, durum kifayət qədər ciddidir.**

Bəli, durum həm də ona görə ciddidir ki, Azərbaycanla sülh müqaviləsinin imzalanması istiqamətində, guya, cəhdlər etdiyini vurğulayan və özünü mütərəqqi subyekt kimi göstərməyə çalışan Ermənistan dövləti öz media orqanı vasitəsi ilə separatçı mahiyyət daşıyan belə bir məsələni tirajlamaqdadır. Kimsə deyə bilməz ki, "Armenpress"in mövqeyi rəsmi İrəvanın mövqeyi deyil. Bir vacib məqam da var ki, onu yazının sonunda diqqətə çatdıracağıq.

*(ardı 3-cü səhifədə)*

# İrəvan Roma Statutunu ölkə qanunvericiliyinə uyğunlaşdırır

## Moskva ilə münasibətlərdə "qırmızı xətlər" keçilib

**Ermənistanda Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Statutu ilə bağlı məsələ yenidən aktiv fazaya daxil olub. Belə ki, ölkənin ədliyyə naziri Qriqor Minasyan Roma Statutunun ratifikasiyası müstəvisində qanunvericilikdəki dəyişikliklərə dair fikirlərini bölüşüb. Nazirin sözlərinə görə, mövcud durumda yeni qanunların qəbuluna da zərurət yaranıb. Minasyan vurğulayıb ki, hazırda bu istiqamətdə bir neçə ölkənin, o cümlədən, Gürcüstanın, eləcə də digər aparıcı dövlətlərin təcrübəsinin təhlili aparılmaqdadır.**



Bütün bunlar öz yerində. Qeyd edək ki, Roma Statutu Birləşmiş Millətlər Təşkilatı Konfransının 15 iyun – 17 iyul 1998-ci il tarixləri arasında İtaliyanın paytaxtı Romada qəbul etdiyi Beynəlxalq Cinayət Məhkəməsinin qurulması haqqında sənəddir. Beynəlxalq müqavilələrdə ona tez-tez "statut" deyilsə də, gündəlik istifadədə Roma Əsasnaməsi adlanır. O zaman sazişin qəbuluna 160 ölkə səs vermişdi ki, həmin ölkələrdən 120-si onun lehinə, 21-i bitərəf, 7-si əleyhinə olmuşdu. Ümumən, 2016-cı ilin mart ayından etibarən 139 dövlət Roma Statutunu imzalamışdı. Onlardan yalnız 124-ü sənədi təsdiqləmişdi.

*(ardı 3-cü səhifədə)*

# Hayastanın növbəti məkri



Səhifə ⇨ 4

# Həssas qruplara qayğı və diqqət davamlıdır

**"Ümummilli lider Heydər Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı müstəqil Azərbaycan dövlətinin güclü sosial siyasətinin formalaşmasını və ildən-ilə təkmilləşməsini təmin edib, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin də canlanmasına imkan yaradıb". Bu fikirləri yeni ilin ilk həftəsində qurumun İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin rəhbəri Fazil Talıbov dedi. O, əhalinin sosial müdafiəsinin gücləndirilməsində ötən il əldə edilən uğurlarla bağlı XQ-yə bildirdi:**

*(ardı 9-cu səhifədə)*

# ABŞ: Ağ ev uğrunda yarışın fəal mərhələsi başlanır



Səhifə ⇨ 11

# Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin Azərbaycana rəsmi səfəri

## Ali qonağın şərəfinə rəsmi ziyafət



Yanvarın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın şərəfinə rəsmi ziyafət verilib.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan yanvarın 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.



## Ulu öndər Heydər Əliyevin məzarını ziyarət



**Ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan yanvarın 8-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarını ziyarət edib.**

Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Ulu öndərin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

## Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan yanvarın 8-də Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib.**

Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.



# ABŞ-da ölkəmizlə bağlı səslənən ittihamlar yalan və qərəzlidir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının 2023-cü ildə Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və ABŞ Dövlət Departamentinin ölkəmizi qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyən etməsi ilə bağlı bəyanat yayıb.**

**Sənəddə bildirilir:** "ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının (BDAK) hesabatını, eləcə də ABŞ Dövlət Departamentinin bəyanatını qəti surətdə pisləyirik. Əminliklə bildiririk ki, ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələrə istinadla ölkəmizi heç bir beynəlxalq statusa malik olmayan qrupa (xüsusi izləmə siyahısı) daxil etməsi siyasi manipulyasiya vasitəsindən başqa bir şey deyil. 2013-cü ildən bəri BDAK hər il öz hesabatlarında ölkəmizdə dini azadlıqların pozulduğu iddiası ilə Dövlət katibi tərəfindən Azərbaycanın "xüsusi izləmə siyahısı"na daxil olan ölkə kimi müəyyənləşdirilməsini Dövlət Departamentinə tövsiyə etmiş, Azərbaycana qarşı qərəzli, yanlış məlumatlar yaymışdır".

***Bəyanatda daha sonra qeyd edilir ki, rəsmi məktublarla hesabatda qaldırılan məsələlərin doğru olmadığı və qərəzliliyi maddə-maddə onların diqqətinə çatdırılaraq etiraz ifadə edilmişdir:*** "Eyni zamanda, Azərbaycanda olan müsəlman və qeyri-müsəlman icmalarının aparıcı qurumları həm sonuncu, həm də əvvəlki hesabatlarla bağlı xüsusi etiraz bəyanatları yaymış, Komissiyaya göndərmiş, o cümlədən, müxtəlif din xadimləri fərdi olaraq da mətbuatda açıqlamalar vermişlər. ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyası tərəfindən təqdim olunan "nöqsanlar" ölkəmizdəki gerçəkliyi əks etdirmir, reallıqla daban-dabana ziddir".

***Açıqlamada o da xatırladılır ki,*** qeyd edilən komissiyanın hesabatında Birləşmiş Millətlər Təşkilatının 2023-cü ilin oktyabrında başa çatan Qarabağdakı missiyası tərəfindən "mədəni və ya dini strukturların heç bir ziyan görmədiyi" məlumatı bildirilsə də, hansısa naməlum insan hüquqları təşkilatlarının iddiaları əsas gətirilməklə ali beynəlxalq təşkilatın hesabatına belə skeptik yanaşılması təəccüb doğurur. O cümlədən, Dövlət Departamentinin bəyanatında da bu məsələyə toxunulmamışdır.

***Komissiyanın və Dövlət Departamentinin müsəlman abidələrinə qarşı edilmiş vandalizmi görməzdən gələrək Azərbaycanın müstəqil siyasətinə təsir göstərmək cəhdinin yolverilməz olduğunun vurğulandığı bəyanat bu sözlərlə bitir:*** "Sözsüz ki, bu, ABŞ–Azərbaycan münasibətlərinə də xələl gətirir. Dövlət Departamentinə regionda yaranmış yeni reallıqlardan çıxış edərək Azərbaycana qarşı qarayaxma aparan ermənipərəst qüvvələrin dəyirmanına su tökməməyi, ikili standartlardan uzaq olmağı və beynəlxalq hüquq normalarına uyğun addımlar atmağı tövsiyə edirik".

**XQ**

# "Stratfor": "Ermənistan Bakının tələblərini qəbul edəcək"

**Ermənistan tranzit və sərhədlərin delimitasiyası məsələlərində Bakının tələblərini qəbul etməli olacaq.**

Bu barədə ABŞ-nin "Stratfor" analitik mərkəzinin 2024-cü il üçün proqnozlara dair dərc etdiyi hesabatda bildirilib.

Mərkəzin analitiklərinin fikrincə, İrəvan Bakı ilə sülh sazişi imzalamaq üçün səylərini davam etdirəcək, lakin regional tranzit dəhlizlərinin şərtləri ilə bağlı fikir ayrılıqları danışıqlara bundan sonra da mane olacaq:

"Güman ki, Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması istiqamətində irəliləyiş var. Amma Ermənistan Bakıya qarşı Qərblə artan siyasi əlaqələrindən və onun hərbi dəstəyindən istifadə edəcək. Amma İrəvanın təsir rıçaqlarının az olduğunu nəzərə alsaq, onlar Bakının Ermənistanın cənubundan tranzit yolların keçməsi və sərhədlərin delimitasiyası ilə bağlı irəli sürdüyü tələbləri qəbul edəcək".

**XQ**

# Papa Fransiskin Azərbaycan və Ermənistana sülh müqaviləsi çağırışı



**Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk Azərbaycan ilə Ermənistan arasındakı sülh prosesinin əhəmiyyətindən danışıb.**

Yanvarın 8-də Papa Fransisk Müqəddəs Taxt-Tacda akkreditə olunmuş diplomatik korpusun rəhbərləri üçün təşkil edilən ənənəvi illik tədbirdə çıxış edib. Roma Papası Vatikanın 2023-cü ildəki fəaliyyəti, habelə 2024-cü il üzrə hədəfləri barədə məlumat verib, həmçinin dünyada baş verən proseslərə dair fikir və çağırışlarını səsləndirib.

Cənubi Qafqaz regionundakı vəziyyətə toxunan katoliklərin ruhani lideri tərəfləri sülh müqaviləsini imzalamağa çağırıb. O, bölgənin sakinlərinin çətin humanitar vəziyyəti ilə bağlı həll yolu tapmaq, köçkünlərin öz evlərinə qanuni və təhlükəsiz şəkildə qayıtmasını təşviq etmək, orada müxtəlif dini icmalara məxsus ibadət yerlərinə hörmətlə yanaşmağın vacibliyini vurğulayıb. Deyib ki, bu addımlar çox arzulanan sülh baxımından iki ölkə arasında etimad mühitinin yaradılmasına kömək edəcək.

Ölkəmizin Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov isə Papa Fransiskə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və təbriki çatdırıb, Roma Papasını ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasında iştiraka dəvət edib.

**XQ**

# Avantüranın otuz ikinci ili

(əvvəli 1-ci səhifədə)

Əvvəla, sözügedən təşkilatın özünə diqqət yetirək. Göründüyü kimi, Girdman, Şirvan və Naxçıvan adları Azərbaycan toponimləridir. Ümumerməni birliyi ermənilərin milli kulinariyamızdakı dolmaya iddia etdikləri kimi, onların əzəli torpaqlarımıza da eyni formada sahiblənməyinin təbliğatını aparır. Dolmanın adı dəyişdirilmədiyi kimi, torpaqlarımızın adı da saxlanılır. Yəni, ortada son dərəcə böyük həyasızlıq var.

İkincisi, indiyədək iki Qarabağ müharibəsi olub. İkinci Qarabağ müharibəsində Ermənistan rüsvayçı məğlubiyyətlə üzləşib. Ölkənin baş naziri Nikol Paşinyan Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. İndi isə Ermənistanın dövlət mediası "Armenpress" separatçı mərama xidmət edən qurumun sənədini yayır. Özü də "Dağlıq Qarabağın" "müstəqilliyi" ilə bağlı bəyanatı. Belə bir durumda rəsmi İrəvanın sülh "zəngulə"lərinə səmimi yanaşmaq mümkündürmü? Əlbəttə ki, yox!

Əlqərəz, "Girdman–Şirvan–Naxçıvan" ümumerməni birliyinin bəyanatında bildirilir ki, 32 il əvvəl yanvarın 6-da Dağlıq Qarabağ Ali Sovetinin birinci sessiyasında Dağlıq Qarabağın "müstəqilliyi bəyannaməsi" qəbul edilib. Guya, Qarabağ "müstəqilliyinin" bütün hüquqi mərhələlərini keçib: "Hələ 1991-ci il sentyabrın 2-də vilayət və Şaumyan Rayon Deputatlar Sovetinin birgə iclasında "Dağlıq Qarabağ Respublikasının elan edilməsi haqqında bəyannamə" qəbul edilmişdir".

Bəyanatda 1991-ci ilin dekabrın 10-da keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin "müstəqilliyini təsdiq edən referendum"dan da söz açılıb. Məlum olduğu kimi, həmin prosesi yerli azərbaycanlılar boykot etmişdilər və ancaq erməni əhalinin qatıldığı "referendum"da "DQR"in müstəqilliyinə səs verilmişdi. Sən demə, belə hüquqi prosedurla əldə edilmiş müstəqillik möhkəm tarixi və siyasi əsaslara söykənirmiş. Hansı əsaslara? "Girdman–Şirvan–Naxçıvan" ümumerməni birliyi həmin əsasları qondarıb bəyanatına salmağı yaddan çıxarmayıb. Elə ən böyük tarixi saxtakarlıq da məhz budur. Birlik iddia edir ki, Azərbaycan 1991-ci ildə öz müstəqilliyini 1918–1920-ci illərdə mövcud olmuş respublikanın varisi kimi elan etmişdi. Guya ki, həmin illərdə, yəni Azərbaycan Xalq Cümhuriyyətinin dövründə Azərbaycanın tərkibində nə Qarabağ, nə də Naxçıvan yer almışdı...



Çox güman ki, cəfəngiyyatın böyüklüyünün fərqinə vardınız. Erməni dövlət mediasının bəyanatını tirajladığı "Girdman–Şirvan–Naxçıvan" ümumerməni birliyi onu da iddia edir ki, guya, Azərbaycan erməni xalqına qarşı aparteid və ayrı-seçkilik siyasəti aparıb və bu, silahlı toqquşmalara, dinc erməni kəndlərinin sakinlərinin kütləvi deportasiyasına səbəb olub. Nəticədə, iki xalqın bir arada yaşaması mümkünsüz olub. Və daha bir cəfəngiyyat: "SSRİ-də qüvvədə olan konstitusiya və qanunlar muxtar qurumlara və kollektiv şəkildə yaşayan milli qruplara İttifaq respublikasından çıxdıqda öz dövlət-hüquqi statusu məsələsini müstəqil həll etməyə imkan verirdi".

Hesab edirik ki, sonuncu sitatın üzərində xüsusi dayanmağa ehtiyac var. Məsələ burasındadır ki, uzun illər davam etmiş nəticəsiz Azərbaycan–Ermənistan danışıqlarında İrəvan hər vəchlə Qarabağdakı separatçı rejimi ayrıca tərəf kimi göstərməyə çalışmışdı. İstəmişdi ki, rəsmi Bakı onların təmsilçiləri ilə bir masa arxasında əyləşsin. Bəs, yuxarıda haqqında söz açılmış "referendum" nə üçün olmuşdu? Məsələ burasındadır ki, Azərbaycana qarşı, xüsusən də Qarabağla bağlı ərazi iddialarında olan erməni avantüristləri lap əvvəldən bölgəni Ermənistana birləşdirmək istəmişdilər. Təsadüfi deyil ki, Qarabağ ambisiyasının, yəni "miatsum"un ideoloqlarından sayılan Abel Aqanbekyan (SSRİ prezidenti Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri) hələ 1987-ci ildə fransız mediasına açıqlamasında bildirmişdi ki, Dağlıq Qarabağ iqtisadi cəhətdən Ermənistana bağlıdır, nəinki Azərbaycana.

Lakin erməni başbilənlər "miatsum"u birbaşa reallaşdırmağın mümkün olmadığını gördükdə, "referendum" keçirib, ərazini ayrıca dövlət olaraq göstərməyə çalışmışdılar. Bölgəni Ermənistana birləşdirmək əzmi o qədər böyük olmuşdu ki, rəsmi İrəvan "DQR"in "müstəqilliyini" tanımamışdı. Yəni, "Girdman–Şirvan–Naxçıvan" ümumerməni birliyinin bəyanatında vurğulandığının əksinə olaraq, "referendumda" məqsəd heç də Qarabağ ermənilərinin öz müqəddəratını təyin etməsi deyildi. Bu, sadəcə bir variant idi.

Bəyanatda daha bir cəfəng məqam da var. Sən demə, Azərbaycan "DQR"in müstəqillik prosesini dayandırmaq üçün Şirvanda, Naxçıvanda yaşayan yarım milyondan çox erməni ni didərgin salıb, Sumqayıtda, Bakıda qırğınlar törədib. Hər halda, tarixi bu qədər saxtalaşdırmaq görünməmiş haldır. Ancaq tipik erməni avantürizmi üçün, bu, çox adi məsələdir. Axı, elementar məntiq və ona uyğun zaman anlayışı var. Ermənilərin Bakını, Sumqayıtı və digər əraziləri tərk edib Ermənistana getmələri daha əvvəlki prosesdir. Yəni, onlar həmin avantüristlərin yaratdıqları vəziyyətə görə yaşadıqları Azərbaycan ərazilərindən çıxanda, "DQR"in "müstəqilliyi" adlı bir şey yox idi. Deməli, Azərbaycan buna qarşı çıxa bilməzdi.

Ümumerməni birliyi daha sonra birbaşa hazırkı dövrə keçid alır və bildirir ki, Azərbaycan törətdiyi cinayətlərə görə cəzasız qaldığından, növbəti etnik təmizləməni Qarabağda aparıb. Guya, ölkəmiz on aya yaxın davam etmiş humanitar böhran yaradıb və sair və ilaxır. Yekunda təşkilat belə qənaətə gəlib ki, "Dağlıq Qarabağ"ın "müstəqilliyinə" alternativ yoxdur.

Bir daha vurğulayaq ki, belə bir qurum Azərbaycanla sülhə gəlmək istədiyini bildirən Ermənistanda fəaliyyət göstərməkdədir. Yəni, orada dövlət qeydiyyatına alınıb. Ən vacibi isə heç də bu təşkilatın bəyanatında nələri bildirməsində deyil. Başlıca məsələ onun açıqladıqlarının Ermənistan dövləti üçün də prioritet təşkil etməsindədir. Bu yerdə sonda üzərinə gələcəyimizi bildirdiyimiz məqama keçid alaq.

Bir daha bildirək ki, "Girdman–Şirvan–Naxçıvan" Ümumerməni Birliyinin bəyanatında Azərbaycan Xalq Cümhuriyyətinin dövründə Qarabağın və Naxçıvanın, guya, ölkəmizin tərkibində yer almadığı iddia olunub. Halbuki, qədim Azərbaycan torpağı İrəvanın Ermənistana paytaxt kimi peşkəş edildiyi tarixi faktdır.

Ermənistan dövləti də bu sayaq manipulyasiyalara baş vurmaqdadır. Diqqət yetirək, hazırda rəsmi İrəvanın Azərbaycanla sülh üçün irəli sürdüyü başlıca prinsiplərdən biri 1991-ci ilin Alma-Ata Bəyannaməsinə əsasən dövlətlərin bir-birinin ərazi bütövlüyünü tanımasıdır. Alma-Ata Bəyannaməsi 1991-ci ilin dekabrın 21-də imzalanıb. Qarabağda haqqında söz açdığımız "referendum" isə dekabrın 10-da keçirilib. Yəni, "müstəqillik" qərarı həmin vaxt verilib, yanvarın 6-da isə elan edilib. O zaman Alma-Ata Bəyannaməsi ilə dövlətlərin bir-birinin ərazi bütövlüyünü tanıması məsələsi əhəmiyyətini itirməkdədir.

Bəli, Ermənistan, sadəcə, bildirə bilər ki, qanun geriyə işləmir və "müstəqillik" qərarı Alma-Ata Bəyannaməsindən əvvəl olub. Nəzərə alaq ki, ölkəmizin ötən il sentyabrın 19-20-də keçirdiyi uğurlu lokal xarakterli antiterror tədbirlərinə və suverenliyimizin tam bərpasınadək erməni iqtidarının nümayəndələri, o cümlədən, baş nazir N.Paşinyan Qarabağın seçkili hakimiyyətinin olduğunu vurğulamışdı.

Onu da nəzərə alaq ki, lokal xarakterli antiterror tədbirlərindən sonra, daha dəqiq desək, sentyabrın 28-də "DQR"in ləğv edildiyi bildirilsə də, ötən ilin sonlarına doğru Ermənistanda səslənən fikirlər bunun əksini sübuta yetirməkdədir. Məsələn, keçmiş qondarma rejimin rəhbəri Samvel Şahramanyan bildirib ki, "DQR" referendum yolu ilə yaradılıb və heç kəs "xalqın iradəsinə" əsaslanmış qərarı ləğv edə bilməz. "Girdman–Şirvan–Naxçıvan" ümumerməni birliyi kimi, S.Şahramanyan da Ermənistan ərazisindədir.

Üstəlik, rəsmi İrəvan yenə də anti-Azərbaycan siyasətindən geri durmur, onun təmsilçiləri müxtəlif beynəlxalq toplantılarda ölkəmizi işğalçı kimi göstərirlər, mövcud istiqamətdə təbliğat aparırlar. Halbuki, belə yanaşma yolverilməzdir. Ermənistan səmimiyyət nümayiş etdirməlidir. Yeri gəlmişkən, səmimiyyətin ilk göstəricilərindən biri "Girdman–Şirvan–Naxçıvan" ümumerməni birliyi adlanan və avantürist niyyətə köklənmiş təşkilatın dövlət qeydiyyatının ləğvi olmalıdır.

**Ə.RÜSTƏMOV**
**XQ**

# İrəvan Roma Statutunu ölkə qanunvericiliyinə uyğunlaşdırır

(əvvəli 1-ci səhifədə)

Rusiya Roma Statutunu 13 sentyabr 2000-ci ildə imzalamışdı. Lakin 2016-cı ilə qədər sənəd təsdiqlənməmiş saxlanılmışdı. 16 noyabr 2016-cı ildə Prezident Vladimir Putin Rusiyanın Roma Statutunda iştirakdan imtina edən sərəncam vermişdi. Əsaslandırma belə olmuşdu ki, BCM-in yurisdiksiyasından çıxma ölkənin milli maraqlarından irəli gəlir. Nəzərə alaq ki, o vaxt dünya miqyasında işğal kimi qiymətləndirilmiş Krımın Rusiya tərəfindən tutulması yaşanmışdı.

Roma Statutunun təsir dairəsi dörd əsas beynəlxalq cinayətə formalaşır: soyqırımı, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz cinayətləri. Bu cinayətlərə heç bir məhdudiyyət tətbiq olunmur. Roma Statutuna əsasən, BCM dövlətlərin özlərinin həllində çətinlik çəkdikləri və müdaxilə etmək istəmədikləri vəziyyətlərdə yalnız yuxarıda sadalanan dörd əsas beynəlxalq cinayəti araşdıra bilər. İstisna olaraq, BCM-in yurisdiksiyası BMT-nin Təhlükəsizlik Şurası tərəfindən icazə verildiyi təqdirdə, bəzi başqa cinayətlərə də aid olunur.



Ermənistana gəldikdə isə 2023-cü il oktyabrın 3-də ölkə parlamenti BCM-in Roma Statutunu ratifikasiya edib. Hakim "Mülki müqavilə" fraksiyasının 60 deputatı ratifikasiyanın (lazım olan 54 səslə) leyihə, müxalif "Ermənistan" və "Şərəfim var" fraksiyalarından 22 deputat əleyhinə səs verib. Bundan əvvəl, yəni mart ayında isə Ermənistanın Konstitusiya Məhkəməsi Roma Statutundan irəli gələn öhdəliklərin fundamental qanunlara uyğunluğunu tanıyaraq, özünün Roma Statutunun konstitusiyaya zidd olması barədə 2004-cü ildə çıxardığı qərarını ləğv etmişdi.

"Ratifikasiya o deməkdir ki, Ermənistan Respublikası ərazisində törədilmiş istənilən ağır cinayət BCM-in yurisdiksiyasına düşəcək və belə bir cinayəti reallaşdırmaq niyyətində olanlar üçün, bu, ən azı, çəkindirici təsir göstərəcək. Azərbaycan Silahlı Qüvvələrinin hələ də Ermənistanın suveren ərazisində yerləşdiyini nəzərə alsaq, ratifikasiya özünü doğruldur", – deyə Ermənistan hökumətinin beynəlxalq hüquqi məsələlər üzrə sözçüsü Yeqişe Kirakosyan parlamentdəki səsvermədən sonra bildirmişdi.

Ermənistanın baş naziri Nikol Paşinyan isə ötən ilin sentyabrında vurğulamışdı ki, Roma Əsasnaməsinin ratifikasiyası "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Ermənistan–Rusiya strateji tərəfdaşlıq alətlərinin xarici təhlükəsizliyin təminatı üçün kifayət etməməsinin" nəticəsidir. Eyni zamanda, İrəvan Moskvanı əmin etməyə çalışmışdı ki, ratifikasiya Kremlin yüksək vəzifəli şəxslərinə qarşı yönəlməyib. Elə əsl məsələ də bundadır. Məlum olduğu kimi, ötən ilin martında BCM Rusiya Prezidenti Vladimir Putinin və ölkənin uşaq ombudsmanı Mariya Lvova-Belovanın həbsinə order verib. "Biz Rusiyaya ikitərəfli saziş bağlamağı təklif etmişik ki, Roma Əsasnaməsi Ermənistan tərəfindən ratifikasiya olunarsa, Rusiyanın qorxuları aradan qalxsın",– deyən nə Kirakosyanın, nə də digər erməni rəsmilərinin oxşar açıqlamaları Moskva tərəfindən anlayışla qarşılanır.

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun 2023-cü ilin oktyabrında bildirdiyi kimi, Rusiya Ermənistan baş naziri Paşinyanın Ermənistanın Roma Əsasnaməsinə qoşulmaq qərarının KTMT alətlərinin kifayət qədər olmamasına və Ermənistan–Rusiya tərəfdaşlığı ilə bağlılığına dair sözlərini qəbul etmir. Rusiya ilə razılaşma təklifinə gəlincə, Peskovun sözlərinə görə, indi bu, "yalnız erməni tərəfinin ideyasını" ifadə edir. "Lakin fakt faktlığında qalır: Ermənistan BCM-i tanıyıb. BCM bizim üçün tanınmayan strukturdur və təbii ki, biz BCM-in Prezident Putin və Lvova-Belova ilə bağlı qərarını tamamilə qanunsuz və əhəmiyyətsiz hesab edirik", – deyə Rusiya dövlət başçısının mətbuat katibi vurğulamışdı.

Onu da bildirək ki, Ermənistan rəsmiləri tərəfindən dövriyyəyə buraxılmış və Roma Statutunun qəbulunun İrəvan–Moskva münasibətlərində gərginliyi aradan qaldırmaq üçün əlavə sənəd məntiqi keçərsiz kimi görünməkdədir. Bu isə o deməkdir ki, ölkələr arasında mövcud istiqamətdə hansısa kompromis yoxdur. Ancaq ötən il İrəvan rəsmiləri özlərinə xas şəkildə vurğulamışdılar ki, sənəd hələ qüvvəyə minmədiyindən, belə bir şans saxlanılır. Əlbəttə, onlar Moskvanın məsələyə can atmasına fokuslanmışdılar. Ancaq məlum oldu ki, Rusiya tərəfi yarımçıq oyunlara gedən deyil. Bu isə o deməkdir ki, Ermənistana daxil olacağı təqdirdə, V.Putini həbs gözləyir.

***

Bəli, indi Ermənistanın ədliyyə naziri Q.Minasyan ölkəsinin digər qanunvericilik aktlarını Roma Statutuna uyğunlaşdırmaqdan söz açırsa, belə məlum olur ki, haqqında danışdığımız məsələ qətidir. Deməli, Ermənistan Rusiya ilə münasibətlər baxımından bütün "qırmızı xətləri" keçməkdədir. Həm də, bu, o deməkdir ki, Ermənistanın Roma Statunun qəbulu ilə Azərbaycanı cəzalandırmaq məntiqi də əhəmiyyətsizdir. Həm də ona görə ki, yalan-gerçək İrəvan Bakı ilə sülhə hazır olduğunu bildirsə də, Moskva ilə münasibətləri normallaşdırmaqdan bəhs etmir.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Hayastanın növbəti məkri

## İrəvanın “qoşunları sərhəddən geri çəkmək” təklifi yeni avantüradır

**Ermənistan tərəfi Azərbaycanla danışıqların rəvan məcrada getməsində maraqlı görünmür. Rəsmi İrəvanın iki ölkənin şərti sərhədindən qoşunları qarşılıqlı olaraq geri çəkməkdə israr etməsi bunun göstəricisi hesab oluna bilər.**

Qeyd edək ki, bu barədə fikirlərini ictimaiyyətə ilk dəfə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan açıqlamışdı. O, ötən il dekabrın 13-də estoniyalı həmkarı Marqus Tsaxkna ilə birgə İrəvanda keçirdiyi mətbuat konfransında Azərbaycan və Ermənistan qoşunlarının sərhəddən qarşılıqlı əsasda geri çəkməyin mümkünlüyünü müzakirə etdiyini bildirmişdi. Mirzoyan qeyd etmişdi ki, bu məsələ etimadın quruculuğu tədbiri kimi gündəliyə gətirilib: “Biz qoşunların Ermənistan–Azərbaycan sərhədindən geri çəkilməsi təşəbbüsü ilə çıxış etmişik. İnanırıq ki, bu, müsbət təsirini göstərəcək və yeni mümkün eskalasiyaların qarşısını almağa kömək edəcək. Mən demirəm ki, razılaşma var, bu, ideyadır, müzakirə olunur. Başqa ideyalar da var”.

Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan da yeni ilin ilk günlərində qoşunların qarşılıqlı olaraq geri çəkilməsinə dair mövqeyini bölüşüb. Qriqoryan məsələnin “danışıqların predmeti” olduğunda israr edib: “Ermənistan 1974–1978-ci illərin sovet xəritələrinə əsaslanaraq, qoşunların sərhəd xəttindən güzgü effekti üzrə geri çəkilməsini təklif edir. Biz danışıqları davam etdiririk. Ümid edirik ki, bununla bağlı razılıq əldə edə biləcək və bu istiqamətdə işi davam etdirəcəyik”.

Eyni zamanda, Qriqoryan Ermənistanın təqdim etdiyi və Azərbaycanın müsbət cavab verdiyi sülh müqaviləsinin son versiyasının mətnindəki dəyişiklikləri şərh etməkdən boyun qaçırıb.

Yanvarın 6-da rəsmi İrəvan qoşunların Ermənistan–Azərbaycan şərti sərhədindən qarşılıqlı olaraq, yeni güzgü effekti üzrə geri çəkilməsi təklifinin əvvəlkitək qüvvədə qaldığını bəyan edib. Bu barədə Ermənistan xarici işlər nazirliyindən “Sputnik Ermənistan” agentliyinin sorğusuna verilən cavabda bildirilib. Qeyd olunub ki, Ermənistan və Azərbaycan arasında aparılan danışıqlar zamanı erməni tərəfi həmişə qoşunların dövlətlərarası sərhəddən qarşılıqlı şəkildə uzaqlaşdırılması təklifi ilə çıxış edib və o, qüvvədə qalır. Nazirlik Ermənistanın bu məsələ ilə bağlı müzakirələrə mümkün qədər tez başlamağa hazır olduğunu vurğulayıb.

İrəvanda hesab edirlər ki, qoşunların sərhəddən uzaqlaşdırılması SSRİ Silahlı Qüvvələri Baş Qərargahının son xəritələri əsasında həyata keçirilməlidir. XİN-dən Ermənistan və Azərbaycanın sülh müqaviləsinin hansı bəndləri üzrə hələlik yekun razılığa gəlmədiyi sualına da cavab verilməyib. Bununla yanaşı, bildirilib ki, iki ölkənin ərazi bütövlüyünün tanınması, SSRİ Silahlı Qüvvələri Baş Qərargahının son xəritələri əsasında sərhədlərin delimitasiyası üzrə işlərə mümkün qədər tez başlamaq, suverenlik, yurisdiksiya, bərabərlik əsasında və qarşılıqlı olaraq, regionda kommunikasiyaların açılması Ermənistan üçün əsas məsələdir.

Ancaq Ermənistan tərəfinin təklifi, şübhəsiz, Azərbaycan üçün məqbul deyil. Hələlik iki ölkə arasında sərhədlərin delimitasiyası həyata keçirilməyib. Delimitasiya həyata keçirilmədiyi üçün, təbii ki, demarkasiya da baş tutmayıb. Sərhəd şərti xarakter daşıyır. Məlumdur ki, sülh müqaviləsi üzərində danışıqlar aparılsa da, son nəticə əldə olunmayıb. Belə olan şəraitdə qoşunların sərhəddən qarşılıqlı olaraq geri çəkilməsi məntiqsiz görünür.



Xarici İşlər naziri Ceyhun Bayramov da İrəvanın təklifinin Bakı üçün qəbuledilməz olduğunu bildirmişdir. C.Bayramov dekabrın 14-də demişdir: “Sərhədlə bağlı saziş olmadığı halda qoşunlar çıxarılsa, orada heç nə baş verməyəcəyinə kim təminat verə bilər?”.

Azərbaycanın xarici siyasət idarəsinin başçısı dekabrın 28-də 2023-cü ilin yekunlarına dair keçirdiyi mətbuat konfransı zamanı da bu məsələyə münasibət bildirmişdi. Qeyd etmişdi ki, əvvəla, erməni tərəfi bu məsələni yarımçıq formada, ikincisi isə kontekstdən çıxararaq ictimaiyyətin müzakirəsinə təqdim edir. Onun sözlərinə görə, hətta, danışıqlar zamanı hansısa məsələlər qaldırılsa belə, bu, heç də onlar üzrə danışıqların davam etdirildiyi demək deyil.

C.Bayramov bildirmişdi ki, qoşunların sərhəddəki mövqelərindən çıxarılması qeyri-realdır. Nazir qeyd etmişdi ki, Azərbaycan qoşunları kiminsə dəvəti və ya sanksiyası ilə sərhədə çıxarılmayıb – ordumuz keçirdiyi hərbi əməliyyatlar nəticəsində həmin mövqelərdə möhkəmlənib. Buna görə də Azərbaycan onlardan geri çəkilmək niyyətində deyil. Xüsusilə ona görə ki, sabah həmin mövqelərin qarşı tərəfin qüvvələri tərəfindən tutulmayacağına heç kim təminat verə bilməz.

Beləliklə, Ermənistan tərəfinin 2021-ci ildən başlayaraq, müxtəlif formalarda irəli sürdüyü sərhədlərdən güzgü effekti üzrə geri çəkilmə ideyasının həyata keçirilməsinin mümkünsüzlüyü üzə çıxır. Güman etmək olar ki, Ermənistan qoşunların mövqelərindən çıxarılması təklifinin reallaşmasından sonra Avropa İttifaqının müşahidə missiyasının sərhədboyu vəziyyətə nəzarət etməsini istəyə bilər. Bu zaman İrəvanda unudurlar ki, Azərbaycan Ermənistandan fərqli olaraq, sərhədlərini nəinki Avropadan, hətta üçüncü ölkələrdən gələn müşahidəçilərin, sərhədçilərin və ya sülhməramlıların nəzarətinə vermək fikrini qətiyyətlə yaxına buraxmır.

Digər tərəfdən, sərhəddə dincliyin hökm sürdüyü indiki dövrdə Ermənistanın belə bir təkliflə çıxış etməsinin özü anlaşılmazdır. Dekabrın 7-də Ermənistanla Azərbaycan arasında etimad yaradılması istiqamətində mühüm hadisə baş verib. Həmin gün Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan baş naziri aparatının yaydığı birgə açıqlamada saxlanılan şəxslərin azad ediləcəyi açıqlandı. Eyni zamanda, Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyinə öz namizədliyini geri götürdü və Azərbaycanın namizədliyini dəstəklədi. Azərbaycan da, Ermənistanın Şərqi Avropa Qrupundan COP-un büro üzvlüyünə namizədliyini dəstəklədiyini bildirdi. Bundan əlavə, bəyanatda Azərbaycan və Ermənistanın regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşdüyü bildirildi. Bu, Bakı və İrəvanın kənar vasitəçilərin iştirakı olmadan əldə edilmiş ilk razılaşma idi. Razılaşma növbəti danışıqların olacağına, tədricən sülh razılaşmasının əldə ediləcəyinə və iki ölkə arasında münasibətlərin normallaşacağına ümidlər verdi.

Yeri gəlmişkən, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın “Berliner Zeitung” qəzetinə verdiyi müsahibəsində iki ölkə arasındakı mövcud vəziyyəti qiymətləndirərkən qeyd etdi ki, ölkəmiz sülh sazişinin imzalanması üçün tarixi şansın yarandığına inanır və bu fürsət əldən verilməməlidir. H.Hacıyev iki ölkə arasında son 30 ilin ən sakit günlərinin müşahidə edildiyini də vurğuladı: “Sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərindən və Azərbaycanın suverenliyinin tam bərpasından sonra Azərbaycanla Ermənistan arasında gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsi gündəmdən tamamilə çıxarılıb. Beləliklə, hazırda biz sülh sazişinin bağlanmasına ciddi maneə görmürük. İndi biz iki ölkə arasında son 30 ilin ən sakit günlərini müşahidə edirik. Hər iki ordu öz kazarmalarına qayıtdığı gündən hətta atışma da baş vermir. Bu yaxınlarda Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Sankt-Peterburqda baş tutan qeyri-rəsmi görüş də müsbət məcrada keçib. Amma konkret tarix barədə danışmaq bir qədər çətindir, çünki prosesi yekunlaşdırmaq üçün Ermənistan və Azərbaycan arasında hələ də əlavə danışıqlara ehtiyac var. Düzünü desəm, mən düşünmürəm ki, hər hansı vaxt qrafiki qoyub, məhdud zaman çərçivəsində işləmək düzgün olardı”.

H.Hacıyevin də qeyd etdiyi kimi, indi hər iki ordu, ümumiyyətlə, heç sərhəddə deyil, kazarmadadır. Azərbaycanın istədiyi, hər zaman qaldırdığı məsələ də zatən bu idi. Rəsmi Bakı işğalın davam etdiyi dövrdə müxtəlif platformalarda bəyan edirdi ki, məsələ siyasi cəhətdən tənzimlənsə, orduya, heç ehtiyac qalmaz və hərbçilər kazarmaya qayıdarlar. Ancaq Ermənistan məsələnin siyasi tənzimlənməsinə maraqlı olmadı və hərbçilərimizin canı-qanı bahasına torpaqlarımız işğaldan azad edildi. Həm 44 günlük Vətən müharibəsi, həm də antiterror tədbirləri zamanı öz işini peşəkarlıqla yerinə yetirən əsgər və zabitlərimiz artıq günün nizam qaydaları əsasında xidmətlərini davam etdirirlər. Belə olan təqdirdə Ermənistan rəsmilərinin qoşunların sərhəddən güzgü effekti ilə geri çəkilməsi təklifinin özü anlaşılan deyil. Əgər onlar bununla hansısa məkrli niyyətlər güdürlərsə, güdsünlər. Yaranmış tarixi şansı itirən və fürsəti qaçıran, başqa sözlə, uduzan yenə Ermənistan olacaq.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

**Ermənistan tərəfi güzgü effekti üzrə hərbçilərin sərhəddən geri çəkilməsi məsələsini dəfələrlə qaldırıb. Ancaq burada Azərbaycan üçün prinsipial məqamlar var. İlk növbədə, sülh müqaviləsi imzalanmalıdır. Bundan əlavə, sərhədlərin delimitasiyası və demarkasiyası həyata keçirilməlidir. Azərbaycanın işğal altında qalan 8 kəndi ilə bağlı məsələ də həllini tapmalıdır.**

**Burada region ölkələrinin iştirakı ilə həll olunub müzakirə edilməli məsələlər də var. Söhbət bəzi məqamlarda regional təhlükəsizlikdən gedir. Bu prizmadan baxanda qoşunların sərhədin hansı istiqamətindən və nə vaxt geri çəkilməsi məlum olacaq. Təbii ki, iki ölkə arasında münasibətlər normallaşarsa, bu təklifin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar. Lakin Ermənistan cəmiyyətində bəzi qüvvələr Azərbaycana qarşı ərazi iddiaları irəli sürürlər. Belə olan halda Azərbaycanın təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məsələsi ön plana çıxır.**

**Məsələyə hərbi-texniki baxımdan yanaşsaq, görərik ki, qoşunların həmin ərazilərdən çıxarılması böyük xərc tələb edəcək. Bundan əlavə, hərbi hissələr üçün əvvəllər yaradılmış infrastruktur istifadəsiz qalacaq. Vətən müharibəsi başa çatdıqdan sonra Müdafiə Nazirliyi və digər güc strukturları tərəfindən sərhədyanı rayonlarda infrastruktur layihələri həyata keçirilib. Rayonlarda yeni hərbi hissələr, müşahidə məntəqələri yaradılıb. Bu, hərbi-texniki tərəfdir. Hərbi-strateji nöqteyi-nəzərdən Ermənistanın gələcək liderlərinin hazırkı vəziyyəti dəyişmək istəməyəcəyinə heç bir zəmanət yoxdur. Ermənistandakı hazırkı vəziyyət Paşinyandan sonrakı dövrdə sülhün davam edib-etməyəcəyi sualı üzərində düşünməyə əsas verir.**

# “Emmanuel qasırğası” Ermənistanı çox qarışdırıb...

## *Son günlər isə ölkə mediasında Fransa prezidentinin adı çəkilmir*

**Yeni ilin ilk günlərində rusdilli erməni mediasını da dəfələrlə izlədik. Haqlı-haqsız çox məsələdən yazırdılar. Ancaq, deyəsən, məğlub olmuş işğalçı ölkədəki həmkarlarımız Fransa rəhbərliyinin hay-küyündən bezиblər və ya “doyublar”.**



Çünki geridə qalan altı-yeddi gündə İrəvanın elektron resurslarında Emmanuel Makron ad-soyadına rast gəlmədik. Halbuki, Makronun prezident seçilməsindən sonra elə bir həftə olmurdu ki, erməni mediasında gen-bol yer almış rəsmi Parisin İrəvanı dəstəkləyən, ermənilərə “göydən bir səbət ulduz yığıb düşürmək” kimi cəfəng vədlər verən, Azərbaycana isə şər-böhtan atan, iftiralar səsləndirən bəyanatlarını görməyək.

Ermənistandakı prosesləri daha yaxından izləyən bir ekspertdən soruşduq ki, nə baş verir, Makronun adı daha erməni mediasında niyə görünmür? Axı biz “Fransa Ermənistanın yanındadır”, “Emmanuel Makron ermənilərin hüquqlarını sonadək qoruyacaq”, “Paris İrəvanı tək qoymayacaq!” kimi şirnikləndirici bəyanatlara “öyrəncəli” olmuşduq. Müsahibimiz dedi ki, Makronun başı Afrikaya qarışıb (orada Fransa əsgərlərini qovan yerli ordunun hərbi texnikasının üstündə Rusiya bayraqlarının görünməsi Parisi çox sarsıdıb), erməni mediasının diqqəti isə Azərbaycanla bağlanacaq sazişin və imzalanacaq digər sənədlərin yanındadır.

Üstəlik, həm Parisdə, həm də İrəvanda artıq yaxşı bilirlər ki, heç bir əsası və konkret nəticəsi olmayan bəyanatlar dövrü geridə qalıb. Bu zaman başqa bir faktı da xatırlatmağa ehtiyac var. Belə ki, son 5 ildə Parisdən gələn bəlalı bəyanatlar erməni xalqına da, Ermənistan dövlətinə də dağıdıcı qasırğaların okean sahilindəki ölkələrə gətirdiyi fəlakətlər qədər ziyan vurub.

Yeri gəlmişkən, okeanətrafı ərazilərdə baş verən dağıdıcı qasırğa, fırtına və tayfunlara verilmiş adlar arasında “Emmanuel”də var. Son illərdə baş vermiş “Katerina”, “İren”, “Sanda”, “İzabella”, “İrma”, “Ofeliya”, “Melisa” “Roza”, “Fiona”, “Yuliana” qasırğalarının adından göründüyü kimi, əksər təbii fəlakətlərə qadın adları verilir. Həmin adların hamısı qədim yunan əsatirlərindən götürülüb. Elə “Emmanuel” sözü indi həmin adı daşıyan Makronun kimlərinsə üstünə fransızsayağı “kişilənməsinə” baxmayaraq, həmin əsatirlərdə qadın adı idi.

Yeri gəlmişkən, internet resurslarında oxuyuruq ki, ABŞ rəsmilərinin fikrincə, “qasırğalar qadınlar kimidir, onları təxmin etmək, kəşf etmək çətindir. Qasırğaların da qadınlar kimi nə zaman, nə qədər zərər verəcəyi bilinmir”. Elə Fransanın indiki prezidenti də elədir.

Amma, deyəsən, ermənilər “Emmanuel” siyasi qasırğasının bu Qafqaz ölkəsinə nə zaman gəldiyinin də, nə qədər ziyan vurduğunun da artıq fərqindədirlər. Yəni Paris siyasətinin, Yelisey Sarayından əsən soyuq yellərin yellətdiyi İrəvanda daha bu təsirlər heç nəyə yaramır. Uzun illər gözü Parisin ağzında olan ermənilər bunu anlayıblarsa, deməli, Emmanuel Makronun yaratmaq istədiyi görüntülərin “3 quruşluq” dəyəri yoxdur.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Yeni təhlükəsizlik arxitekturası: dünya nizamının böhranı və xilası

## IV məqalə

**Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

### Kənar təşəbbüslər

Dünyanın yeni təhlükəsizlik arxitekturasının formalaşması kontekstində Cənubi Qafqazda regional inteqrasiyanın formalarına nəzər salmaq zərurətini öncəki məqalədə vurğulamışıq. Məsələnin bu cür qoyuluşu iki səbəbdən aktualdır. Birinci səbəb yeni təhlükəsizlik arxitekturasında regionların əhəmiyyətli rol oynaması ilə bağlıdır. İkinci səbəb isə hər regionun özünəməxsusluğu prizmasında fərqli inteqrasiya formalarının regionlararası miqysada sistem yarada bilmələrinin geosiyasi və siyasi şərtləri ilə əlaqəlidir.

Bu iki səbəb işığında Cənubi Qafqazda regional inteqrasiyanın formalarına baxanda burada vahid birləşmə modelini görə bilmirik. Keçən əsrin 90-cı illərinin əvvəllərində regionun inteqrasiyasının sifarişi əsasən Qərbdən gəlirdi. Ayrıca, Avropa İttifaqı xüsusi canfəşanlıq göstərirdi. 1992–1993-cü illərdən isə Aİ-nin Cənubi Qafqaz siyasətinin konseptual əsası qoyuldu. Bunu təşkilat bir neçə proqram çərçivəsində həyata keçirməyə başladı. Həmin kontekstdə 1993-cü ildə Brüsseldə “Avropa–Qafqaz–Asiya” – “Tarixi İpək yolunun bərpası” nəqliyyat dəhlizi kimi TRACECA proqramı həyata keçirilməyə başladı. Bu proqram MDB ölkələrinə texniki yardım adlı TACİS proqramının bir hissəsi idi. Cənubi Qafqazın hər üç dövləti bu proqrama daxil edildi.

Aİ-nin region dövlətləri ilə münasibətləri qurmağa bu formada başlaması bir neçə özəllikdən xəbər verirdi. Hər şeydən öncə, təşkilat başlıca olaraq öz maraqlarına uyğun inteqrasiya görməyə çalışırdı. Sonra, bu prosesi ehtiyatla apararaq Cənubi Qafqaz dövlətləri ilə əlaqələrə Rusiyanı və Çini nəzərə almaqla yanaşırdı. Lakin Brüssel lap başlanğıcdan Rusiyanı bu proseslərdən kənarda tutmaq kimi bir strategiya da güdürdü. Bu da Cənubi Qafqaz dövlətlərinin üzv olduqları MDB ilə bəri başdan ziddiyyətə daxil olmaq demək idi. Sonrakı proseslər bu məsələnin dərindən region ölkələri üçün çətinliklər yarada biləcəyini göstərdi. Həmin kontekstdə Aİ-nin yaratdığı bir situasiya Azərbaycanı da geosiyasi baxımdan həssas bir məkana çevirirdi. Biz, Qərbin enerji sahəsində əməkdaşlıq niyyətlərini nəzərdə tuturuq. Məhz həmin istiqamətdə Rusiyadan yan keçən nəqliyyat marşrutlarını Qərb öz xeyrinə həll etməyə çalışdı. Azərbaycan isə balanslı mövqeyi ilə reallığa uyğun əməkdaşlıq mühiti yaratmağa çalışırdı.

Bu potensial ziddiyyətin mövcudluğu şəraitində Aİ Cənubi Qafqaz ölkələri ilə əlaqələri inkişaf etdirməyə cəhdlər göstərirdi.

Belə ki, 1994–1995-ci illərdə Aİ Cənubi Qafqaz ölkələri ilə münasibətlərin strategiyasını əks etdirən sənəd hazırladı. Həmin sənəddə regionla münasibətlər enerji maraqları ilə izah olundu. Bununla, Cənubi Qafqaza Qərbin baxışının mühüm bir cəhəti də konkretləşdi. Belə görünürdü ki, Avropa üçün enerji təhlükəsizliyi prioritet təşkil edəcəkdir.

Bunlarla yanaşı, geosiyasi baxımdan əhəmiyyəti olan bir münasibətlər istiqaməti də özünü göstərməyə başladı. Bu, Aİ-nin Cənubi Qafqazın dövlətlərinə ayrı-ayrılıqda yanaşması ilə bağlıdır. Həmin əsasda 1996-cı ildə hər üç region dövləti ilə Tərəfdaşlıq və Əməkdaşlıq Müqaviləsi imzalandı. Həmin müqavilə 1999-cu ildə qüvvəyə mindi. Bununla da Qərbin Cənubi Qafqaz strategiyasında iki istiqamət birləşdi – milli dövlətlərlə qarşılıqlı əlaqələr fonunda ümumregion mühiti yaratmaq məqsədi qarşıya qoyuldu.

Deməli, artıq XXI əsrin başlanğıcına Qərbin Cənubi Qafqazda inteqrasiya formatına konkret yanaşması formalaşmışdı. Burada əsas məqsəd regionun ayrı-ayrı dövlətləri ilə əlaqələri genişlədirməklə onları ortaq “Avropa mühiti” halına gətirmək niyyəti vardı.

Lakin Brüsseldə iki geosiyasi məqamı unutmuşdular. Onlardan biri Rusiya faktorunu düzgün nəzərə almamaqla bağlı idi. Digəri isə Cənubi Qafqazda Ermənistanın təcavüzünün nəzərə alınmaması ilə əlaqəli idi. Konkret olaraq, avropalılar təcavüzkarla təcavüz qurbanını eyni siyasi qəlibdə görürdülər. Bu da o demək idi ki, regional reallıq nəzərə alınmır və həmin səbəbdən heç bir inteqrasiya formatı uğurlu ola bilməzdi.

Burada onu da qeyd edək ki, Qərbin Cənubi Qafqazda inteqrasiya prosesinə əsasən öz maraqları prizmasından yanaşmasını təsdiq edən faktlardan biri regional təşkilatların formalaşdırılması cəhdləri idi. Həmin aspektdə 1997-ci ildə yaradılmış GUÖAM adlı təşkilat maraqlıdır. Bura Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna və Özbəkistan daxil idi. Sonra Özbəkistan təşkilatı tərk etdi və GUAM qaldı. Göründüyü kimi, bu təşkilatda Ermənistan yox idi. Lakin Brüssel üçün GUAM-ın başlıca rolu Rusiyadan yan keçən enerji-nəqliyyat yolunun yaradılması ilə üzv dövlətlərin Moskvadan asılılığını azaltmaq olmalıydı. Bu da sona kimi alınmadı. Bunların fonunda MDB daha dayanıqlı görünürdü, lakin bu təşkilat da Cənubi Qafqazda real inteqrasiya prosesini yarada bilmədi. Əsas maneə öncə Azərbaycana Ermənistanın təcavüzü idi, sonra isə Rusiyanın Gürcüstana hücumu bura əlavə olundu.

2004–2008-ci illərdə Cənubi Qafqazda ABŞ dominantlıq etməyə cəhd göstərdi. Müəyyən nəticələr də



oldu. Lakin tam mənasında hansısa dayanıqlı inteqrasiya modelindən söhbət gedə bilməzdi. Sonrakı proseslər də göstərdi ki, Vaşinqtonun da regional əməkdaşlıq formatları səmərəli və ədalətli deyil, tarixi gerçəkliyi nəzərə almır.

### “Qafqaz evi” və regional təhlükəsizlik

Burada bir məqamı mütləq nəzərə almaq lazımdır. Hələ keçən əsrin 90-cı illərində Azərbaycanla Gürcüstan rəhbərliyinin təşəbbüsü ilə region ölkələrindən ibarət “Qafqaz evi” yaradılmasına cəhd oldu. 1996-cı il martın 8-də Tbilisidə ulu öndər Heydər Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze “Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında” adlı sənəd imzaladılar. Onu “Tbilisi bəyannaməsi” adlandırırlar. Sənəddə vurğulanır ki, “Qafqaz bizim ümumi evimizdir. Bizim borcumuz onu dinc, çiçəklənən region etməkdən ibarətdir...”

Həmin sənəddə regional əməkdaşlıq ön sıraya çıxarılmaqla yanaşı, digər təşkilatlarla da əməkdaşlığa geniş yer verilirdi. Regionda əməkdaşlığın qarşılıqlı faydalı qazanca və bərabərhüquqlu münasibətlərə görə formalaşması nəzərdə tutulurdu. Bu sənəd faktiki olaraq müasir tarixi mərhələdə Cənubi Qafqazın iki dövlətinin bütövlükdə regionda əməkdaşlıq və sabitlik istiqamətində əlaqələr qurmağın fəlsəfəsi idi. “Qafqaz evi” bu geosiyasi aspektdə ilk real regional ideya kimi qəbul edilə bilərdi. Burada Ermənistanın olmaması isə gələcəkdə aradan qaldırıla biləcək məsələ idi. II Qarabağ savaşı göstərdi ki, gec və ya tez Ermənistan da “Qafqaz evi” ideyasına uyğun davranacaq.

Ancaq müəyyən səbəblərdən bu ideya da yarımçıq qalmışdır. İlk təcrübə kimi isə əhəmiyyətini saxlamaqdadır. Bununla yanaşı, digər təkliflər və cəhdlər də olmuşdur (məsələn, E.Şevardnadzenin “Qafqaz ATƏT”i ideyası və s.). Lakin onların heç birində hər üç Cənubi Qafqaz ölkəsini əhatə edən format gözə dəymir.

### TDT: əməkdaşlıq və təhlükəsizliyə yeni nəfəs

Bunların fonunda Cənubi Qafqaz üçün müsbət təsiri ola biləcək bir təşkilatın da meydana gəlməsini mütləq vurğulamaq gərəkdir. Biz, Türk Dövlətləri Təşkilatını nəzərdə tuturuq. Bura Cənubi Qafqazdan ancaq Azərbaycan daxil olsa da, onun fəaliyyətinin geosiyasi faydası bütövlükdə regionda qarşılıqlı qazanca, geosiyasi və enerji təhlükəsizliyinə, regionda sabitliyə xidmət edir. Bu da TDT-nin, bütövlükdə regional təhlükəsizliklə qalobal təhlükəsizliyi əlaqələndirə biləcək bir təşkilat olduğunu göstərir.

Məsələnin bu tərəfini biz irəlidə təhlil edəcəyik. Burada onu vurğulayaq ki, Prezident İlham Əliyevin yenidən “Qafqaz evi” ideyasını gündəmə gətirməsində II Qarabağ savaşında əldə edilən möhtəşəm Qələbə ilə yanaşı, TDT-nin regional və regionlararası əməkdaşlıqda əldə etdiyi uğurlar da az rol oynamamışdır. Azərbaycan bu təşkilatın üzvü kimi geniş bir geosiyasi məkanda əməkdaşlıq və təhlükəsizlik istiqamətlərində olduqca fəaldır! Prezident İlham Əliyev məharətlə bu istiqamətdə liderlik edir!

### İlk ümumiləşdirmələr

Biz Cənubi Qafqazda regional əməkdaşlıq və təhlükəsizliklə bağlı daha geniş şərhə ehtiyac görmürük. Çünki burada əsas məqam yuxarıda vurğulanan əməkdaşlıq formatlarının fəlsəfi və geosiyasi mənasını izah etməklə bağlıdır. Belə görünür ki, keçən əsrin 90-cı illərindən bir nümunəni çıxmaq şərti ilə təklif olunan regional əməkdaşlıq formatları reallığa adekvat olmamışdır. Sovetlərin dağılması ilə Qərb Cənubi Qafqazda əməkaşlıq formatları təşəbbüsünü ələ almağa çalışmışdır. Bir neçə proqram da təklif etmişdir. Lakin burada əsas nöqsan Aİ və ABŞ-ın öz maraqlarına üstünlük verməsindən ibarət olmuşdur. Onun başlıca təzahürü isə Ermənistanın Azərbaycana təcavüzünü nəzərə almamaqla bağlı idi. Bunun fonunda Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinə və suverenliyə tam nail olmasına maneçiliklər törətmişlər. Belə bir şəraitdə hansısa real və davamlı regional əməkdaşlıqdan danışmaq mümkün deyildir. Deməli, regional təhülkəsizlik arxitekturası məsələsi də açıq olaraq qalırdı.

Digər məqam Rusiyanın bu proseslərə reaksiyası ilə bağlıdır. Rusiya da ənənəvi dominantlıq şərtlərini saxlamağa çalışdığından real regional əməkdaşlığa adekvat təklif edə bilməmişdir. Bunun fonunda Moskvanın hansısa gerçək regional təhlükəsizlik modeli yarada bilməsi heç inandırıcı deyildir. Proseslər də bunu sübut edir!

İran daima gözləmə mövqeyi ilə öz maraqlarını saxlamağı balanslaşdırmışdır. II Qarabağ savaşından sonra isə əsl niyyətini açıq ifadə etməli oldu. Rəsmi Tehran real olaraq Cənubi Qafqazda heç bir inteqrasiya modeli təklif etmir və buna da çalışmır. Onun əsas məqsədi ənənəvi vəziyyəti saxlamaqdan ibarətdir. Buna görə də “Ermənistan sərhədi qırmızı cizgimizdir” tezisindən bir addım da irəli gedə bilmir. Son zamanlar Azərbaycanla müəyyən əlaqələr qurmağa etdiyi cəhdlərin real nəticəsini zaman göstərəcəkdir.

Ancaq insanların yaddaşında hələlik daha çox İranın Ermənistana yardımları, ermənilərin dini-mədəni abidələri təhqir etməsinə göz yumması, Azərbaycanda müxtəlif şəxslərə qarşı terror etmək cəhdləri və Azərbacyan səfirliyinə olan terror hücumu yadda qalmışdır.

Vurğuladığımız bu iki tendensiya Cənubi Qafqazda əməkdaşlıq və təhlükəsizliyə nəinki fayda vermişdir, hətta vəziyyəti daha da mürəkkəbləşdirmişdir. Qərblə Rusiyanın aktiv surətdə regional rəqabəti, Çinin isə arxa planda görünməklə öz siyasətini aparması, İranın “türklərdən başqa hamıya olar” məntiqində qalması mürəkkəb və riskli bir mənzərə formalaşdırmışdır. Özü də bu, qlobal miqyasda təhlükəsizlik arxitekturasının getdikcə daha da aktuallaşması fonunda xeyli təhlükəli görünür. Obrazlı desək, Cənubi Qafqaz “təhlükəsizlik seytnotuna düşmüşdür”.

Ancaq işıq ucu var. Xilas yolu ola biləcək əməkdaşlıq formatı təklifi mövcuddur. Həm də, bu, regional və qlobal təhlükəsizlik arxitekturasının formalaşması aspektində olduqca perspektivli görünür.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Paytaxtın baş planı**

# Bakı: qədimliklə müasirliyin ahəngdar vəhdəti

**Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, aparıcı qlobal şəhərsalma prinsipləri nəzərə alınaraq, planlı və sistemli inkişafı təmin etmək məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Bakının Baş Planı hazırlanıb və aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq 30 dekabr 2023-cü il tarixində Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilib.**



Bakı bu gün Şərqlə Qərbin mədəni dəyərlərini özündə birləşdirən böyük mədəniyyət mərkəzidir. Qədim şəhər həm də müxtəlif din, dil və mədəniyyətlərin vəhdət təşkil etdiyi ecazkar bir məkandır. Onilliklər boyunca həyata keçirilən sosial-iqtisadi inkişaf paytaxtın mədəni simasına da yeni çalarlar gətirib: yastı-yapalaq damlar və plansız “gecəqondu”lar sökülür. Müasir Bakıya, doğru olaraq, “göydələn”lər şəhəri də deyirlər. Paytaxtın "Alov qüllələri” də mavi gözlü Xəzər, əsrlərin yadigarı Qız qalası kimi Bakının rəmzinə çevrilib.

Dövlətimizin başçısının dediyi kimi, paytaxtımızın siması gündən-günə dəyişir: “Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu təkcə biz demirik. Bunu, demək olar ki, Bakıya gələn bütün qərəzsiz xarici qonaqlar deyir. Sözün əsl mənasında, Bakı parlayan bir ulduzdur. Biz paytaxtımızı parklar, bağlar, ictimai zonalar şəhərinə çevirmişik. İndi yadınıza salın, əvvəlki dövrlərdə qanunsuz tikilmiş, bir-birinin içinə girmiş binalar həm orada yaşayanlara, həm də şəhər əhalisinə nə qədər əziyyət verirdi. İndi biz təmizlənmiş və sakinləri köçürülmüş yerlərdə ictimai zonalar yaradırıq, orada binalar tikilmir”.

Paytaxtın memarlıq simasına qayğıkeş münasibətdən bəhs edərkən ilk növbədə yadımıza 2013-cü ildə burada baş verən qeyri-adi hadisə düşür. O zaman Füzuli küçəsindəki 39 saylı bina yolun genişləndirilməsi ilə əlaqədar olaraq təxminən 10 metr geriyə sürüşdürüldü. Sökülməsinə qıyılmadı, çünki 1908-ci ildə neft maqnatları olan Hacınski qardaşlarının tikdirdiyi həmin bina tarixi memarlıq əhəmiyyəti daşıyır. Bakının hər bir memarlıq elementinə böyük önəm verən Prezident İlham Əliyev tarixi əhəmiyyətli tikilinin qorunması ilə bağlı tapşırıqlarını verdi və beləliklə də, “Hacınski qardaşlarının evi” öz tarixi görkəmində qorunub saxlanıldı. Həmin yerdəyişmə prosesini ölkə rəhbərinin şəxsən izləməsi paytaxtın tarixi simasının qorunmasına çox böyük həssaslıqla yanaşıldığının daha bir sübutudur.

Bakı göz önündəcə yenilənir, daha da gözəlləşir. Dövlət başçısının vurğuladığı kimi, dənizkənarı bulvar 3 kilometrdən 16 kilometrə uzadılaraq böyük bir ictimai zonaya çevrilib. Heydər Əliyev Sarayının arxasında, sözün əsl mənasında, gözəl park yaradılıb. Azərbaycan Milli Dram Teatrının arxasındakı “Sovetski” adlandırılan ərazidəki biabırçı mənzərə aradan götürülüb. Dövlət Bayrağı və Fəvvarələr meydanları, “Ağ şəhər”, Bakı Şəhər Zooloji parkı, xiyabanlar və daha neçə-neçə gözəl məkan əsl istirahət və estetik zövq ünvanına çevrilib. Şəhərin axşam “kaleydoskop”u göz-könül oxşayır...

Yeni Baş Plan qarşıdakı 20 il ərzində paytaxtın əsas inkişaf prioritetlərini özündə əks etdirir. O cümlədən, dayanıqlı şəhər mühiti, mədəni və tarix-memarlıq irsinin qorunması və ərazilərin abadlaşdırılması tədbirlərini özündə ehtiva edir.

Xatırladaq ki, ilk dəfə Bakının Baş planı 1898-ci ildə tərtib olunub. O vaxtdan indiyədək paytaxtın 4 baş planı hazırlanıb. Sonuncu 1986-cı ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə təsdiqlənib. Həmin sənəd 2005-ci ilə qədər olan dövrü əhatə edib. 2007-ci ildə “Böyük Bakının regional inkişaf planı”nın hazırlanmasına başlanılmasını nəzərə almasaq, sonrakı dövrdə yeni Baş plan olmayıb. Yaxşı haldır ki, bu, şəhərin ümumi simasına müəyyən xələl gətirsə də, tarixi memarlıq irsinə ziyanı olmayıb. Abidələr qorunub, yeniləri ucaldılıb, müasir üslubda gözəl binalar tikilib.

Yeni Baş Planın layihəsini Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə Almaniyanın beynəlxalq şəhərsalma şirkəti hazırlayıb. Bakı Dövlət Layihə İnstitutu və digər müvafiq yerli strukturlar da bu işə cəlb edilib. Paytaxtın Mərkəzi Planlaşdırma Rayonunun yaradılması nəzərdə tutulur ki, bundan da məqsəd təklif olunan ərazi üzrə konkret tikinti norma və qaydalarının tətbiq edilməsi ilə mərkəzi Bakının öz tarixi hüdudları daxilində ahəngdar inkişafının təmin olunmasıdır. Mərkəzi Planlaşdırma Rayonunun Xüsusi mühafizə zonası tarixən formalaşmış sxemə malik, memarlıq və qədim abidələrin toplam yerləşdiyi, habelə əhalinin daha çox istirahət, əyləncə və xidmət məkanı kimi istifadə etdiyi ərazidir. Bu zona sözügedən rayonun əsasını təşkil edən mühüm planlaşdırma elementidir.

Baş Planın əsas konseptual sütunları olan “Hibrid Yaşıl Dəhlizlər”ə aid funksiyalara şəhərin müxtəlif hissələrini birləşdirməklə piyada gəzintilərini və velosiped istifadəsini təşviq etmək, yaşıllıqları genişləndirmək və əlavə “yaşıl” istirahət zonaları yaratmaq daxildir.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyevin fikrincə, yeni şəhər planı reallaşdırılan zaman müəyyən tikililərin sökülməsinə də getmək lazım gələcək ki, bu da xeyli büdcə vəsaiti tələb edir. Axı, bu gün Bakıda sökülməli olan xeyli sayda çoxmənzilli köhnə binalar var. Söküləcək binaların yerində yeni binalar tikiləndə geniş ara məsafəsi, digər infrastrukturla bağlı çətinliklər ola bilər. Odur ki, daha optimal həll variantları işlənməli və icra prosedurunun maksimum ağrısız keçməsi üçün səmərəli yollar tapılmalıdır.

Hazırda paytaxtımızda gur inkişaf meyli hiss olunmaqda, şəhər meqapolisə çevrilməkdədir. Amma unutmayaq ki, Bakının qədim simasının qorunması da olduqca vacibdir. Baş şəhərin özünəməxsus siması qədimliklə müasirliyin unikal vəhdəti sayəsində formalaşır.

***Ə.ƏLİYEV***
***XQ***

# Seçki mübahisələri mövzusunda seminar-müşavirələr keçirilir





**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası fərqli statuslu seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə genişmiqyaslı maarifləndirmə layihələrini davam etdirir.**

Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramına uyğun olaraq, yanvarın 8-dən etibarən növbəti tədbirlərə – Ali Məhkəmə və apelyasiya məhkəmələri ilə birgə layihə çərçivəsində seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan regional seminar-müşavirələrə start verilib.

Layihənin açılışı və ilk seminar-müşavirə yanvarın 8-də Bakı şəhərində Hilton hoteldə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun giriş nitqləri ilə başlayıb.

Sonra gündəliyə uyğun olaraq, Mərkəzi Seçki Komissiyası, Ali Məhkəmə və Bakı Apellyasiya Məhkəməsinin məsul vəzifəli şəxsləri Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarına verilməsi və onların araşdırılması qaydaları, seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat barədə təqdimatlarla çıxış ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvləri və Katibliyin aidiyyəti struktur bölmələrinin əməkdaşları, region üzrə apelyasiya məhkəmələrinin hakimləri və dairə seçki komissiyaları sədrlərinin iştirak etdiyi seminar-müşavirənin sonunda seçki mübahisələrinin məhkəmə qaydasında həllinə dair müxtəlif mövzular ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd etmək lazımdır ki, sözügedən layihənin reallaşdırılmasında başlıca məqsəd qarşıdan gələn seçkilərin yüksək səviyyədə təşkil olunub, azad, ədalətli və şəffaf keçirilməsi yönündə görülən bütün işlərlə yanaşı, seçki mübahisələrinin həlli ilə bağlı dairə seçki komissiyalarının bilik, bacarıq və məlumatlılıq səviyyəsinin yüksəldilməsi, bu istiqamətdə atılan addımların səmərəliliyinin artırılması, eləcə də vətəndaşların seçki hüquqlarının daha effektiv təmin olunmasıdır.

Seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan seminar-müşavirələrin növbəti mərhələsinin yanvarın 10-da Gəncə, Naxçıvan, Şəki və Şirvanda regionlar üzrə müvafiq məhkəmə orqanları və seçki dairələrinin dairə seçki komissiyalarını əhatə etməklə keçirilməsi nəzərdə tutulur.

***XQ***

# BAMF-ın 50 nəfərlik heyəti seçkiləri müşahidə edəcək



**Beynəlxalq Avrasiya Mətbuat Fondunun Himayəçilik Şurasının 2024-cü ildə ilk iclası keçirilib. İclasda ötən ilin hesabatı dinlənilib və cari il üçün fəaliyyət planı müzakirə olunub. Həmçinin müzakirələr nəticəsində fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində BAMF-ın 50 nəfər müşahidəçi heyəti ilə təmsil olunması barədə qərar qəbul olunub.**

Daha öncə - 2008 və 2013-cü illərdə seçki koalisiyalarının yaradılmasında birbaşa iştirak edən BAMF digər illərdə keçirilən seçkilərdə də aktiv fəaliyyəti ilə seçilib. Builki seçkilərdə də öz zəngin seçki təcrübəsi və kadr bazası ilə təmsil olunacaq BAMF-ın müşahidəçi komandası obyektiv və operativ fəaliyyəti ilə ölkə üçün əlamətdar olan həmin seçkilərdə öz töhfəsini verməyə çalışacaq.

Seçkilərə qədər müəyyən olunmuş 50 nəfər müşahidəçiyə peşəkar seçki texnoloqu tərəfindən təlimlər keçiriləcək. Həmçinin seçki gününə qədər bir sıra tədbirlərin və maarifləndirici görüşlərin keçirilməsi də nəzərdə tutulub. Həmin dövr ərzində təşkilat tərəfindən mütəmadi olaraq hazırlıq prosesi və yenilənən bəzi vacib məlumatlar ictimaiyyətlə paylaşılacaq. Bununla yanaşı, Himayəçilik Şurasının iclasında BAMF prezidenti Umud Mirzəyev seçki günü müşahidəçilik fəaliyyətinin vahid bir mərkəzdən koordinasiya olunacağını, mütəmadi olaraq obyektiv məlumatların paylaşılacağını və seçki ilə bağlı yekun hesabatın hazırlanacağını qeyd edib.

Təşkilat 18 fərqli şəhər (rayon) olmaqla 25 dairədə öz müşahidəçilik missiyasını yerinə yetirməyə çalışacaq. Burada paytaxt Bakı ilə yanaşı Xankəndi, Şuşa, Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Tərtər, Bərdə, Goranboy, Naftalan, Gəncə, Samux, Beyləqan, Kürdəmir, Hacıqabul, Xırdalan və Sumqayıt kimi böyük şəhərlər də var.

***XQ***

# Azərbaycanda 6,3 milyon seçicinin siyahısı hazırdır



**Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov bu barədə jurnalistlərə müsahibəsində deyib.**

R.Qasımov bildirib ki, onlar əsas seçicilər siyahısına daxil olanlardır: “Ümid edirəm ki, seçicilərin məlumatlarını yoxlanılması üçün təqdim edilən imkanlar seçici sayının daha da artmasına imkan verəcək”.

O bildirib ki, “ASAN xidmət” seçicilərin yaxınlaşıb öz məlumatlarını yoxlaması üçün bir məkana çevriləcək: “Artıq “ASAN xidmət" mərkəzlərində seçicilərin adlarını seçici siyahılarında yoxlaması üçün yeni bir imkan təqdim olunur. Mərkəzi Seçki Komissiyası ilə “ASAN xidmət”in birgə layihəsi olan innovativ həll bir neçə gündür fəaliyyət göstərir. Adlarını həmin sistemdə yoxlayan seçicilər bununla bağlı bizə məlumat verirlər. Biz də sistemin bu qədər sərbəst, səlis, hətta mükəmməl olmasının canlı şahidi olduq”.

MSK-nın hər zaman informasiya-kommunikasiya texnologiyalarının mütərəqqi innovativ imkanlarından bəhrələnməyə çalışdığını deyən R.Qasımov bildirib: “Belə imkanlar baxımından “ASAN xidmət” nəinki Azərbaycanda, eyni zamanda, bütün dünyada öz dəst xətti ilə seçilən qurumdur. Biz də “ASAN xidmət” imkanlarından, mütərəqqi innovasiyalardan istifadə etməyə çalışdıq. İndiyədək “ASAN xidmət”lə müxtəlif layihələr çərçivəsində bir araya gəlmişik, bundan sonra da müxtəlif layihələrdə yaxından əməkdaşlıq edəcəyik”.

R.Qasımov seçicilərin öz adlarını seçici siyahısında yoxlamaq üçün təqdim edilən digər ənənəvi məkanlar da olduğunu bildirib: “Seçicilər, eyni zamanda, dairə və məntəqə seçki komissiyalarına baş çəkə, MSK-nın Qaynar xəttinə, internet səhifəsinə müraciət edə bilərlər. Səsvermə gününə 25 gün qalanadək seçicilər bütün vasitələrdən istifadə etməklə öz məlumatlarını yoxlaya bilərlər. Onları bütün bu imkanlardan yararlanmağa dəvət edirəm”.

***XQ***

# Seçki marafonu: Saxta malumatlara inanmayın

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti birgə açıqlama yayıb.**

Açıqlamada deyilir: “Bir sıra sosial şəbəkə seqmentlərində Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədlikləri qeydə alınmış şəxslərlə bağlı saxta hesablar yaradılır və onların adından həqiqətə uyğun olmayan məlumatlar yayılır.

Seçkilər ərəfəsində bu tipli fəaliyyət məqsədyönlü şəkildə ictimai rəyi çaşdırmağa, namizədlərin reputasiyasını ləkələməyə yönəlmiş addımdır. İctimaiyyəti belə yalan və təxribat xarakterli paylaşımlara inanmamağa, yalnız prezidentliyə namizədliyi qeydə alınmış şəxslərin rəsmi açıqlamalarını və onların sosial media hesablarında yerləşdirilmiş məlumatları əsas götürməyə çağırırıq.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyaların təsirinə düşməmək üçün sayıq olmağa səsləyirik.




Qeyd olunan saxta hesabların mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir”.

***XQ***

# Seçkilərə hazırlıq davam edir



## Sənədlərin təqdimat müddəti başa çatdı

***2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində prezidentliyə namizədlərin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin MSK-ya təqdim edilməsi müddəti dünən başa çatdı. Prezident seçkiləri ilə əlaqədar bu müddət 2023-cü il dekabrın 19-dan, 2024-cü il yanvarın 8-i saat 18:00-dək olan dövrü əhatə edib.***

Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən, prezidentliyə namizəd, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 gün və ən azı 30 gün qalmış saat 18:00-a qədər namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərini MSK-ya təqdim etməlidir.

Xatırladaq ki, bugünədək 17 nəfərin prezidentliyə namizədliyinin irəli sürülməsi təsdiqlənib və MSK-da 3 namizədin prezidentliyə namizədliyi qeydə alınıb.

## Azad edilmiş ərazilərdə seçki məsələləri

***İşğaldan azad edilmiş ərazilərdə artıq seçki məntəqələri qurulub. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov məlumat verib.***

Sədr bildirib ki, orada işlər, demək olar ki, tamamlanıb. Həmin ərazilərdə görülən işlər digər bölgələrdəki seçki məntəqələrinə də nümunə ola bilər. Çünki həmin bölgələrdə intensiv tikinti-quraşdırma işləri aparılır. Hazırda Mərkəzi Seçki Komissiyası həmin məntəqələri təchiz etməklə məşğuldur.

## Məhkəmələrin seçkilərlə bağlı vəzifələri

***Ali Məhkəmənin sədri İnam Kərimov seçki mübahisələrinin məhkəmə qaydasında həllinə münasibət bildirərkən deyib ki, ölkəmizdə seçki hüquqlarının müdafiəsi ilə bağlı müraciətlərə inzibati məhkəmə icraatı qaydasında ilkin olaraq apelyasiya instansiyası məhkəmələri tərəfindən baxılır.***

Bu cür müraciətlərə birbaşa apelyasiya instansiyası məhkəmələrində baxılması işlərə daha keyfiyyətli və operativ baxılmasını, eləcə də proseslərin seçkilərin mahiyyəti nəzərə alınmaqla daha çevik idarə olunmasını təmin etmək məqsədi daşıyır. Məhkəmələr həmişə olduğu kimi, bu il də fevral ayında keçiriləcək növbədənkənar prezident seçkilərində öz üzərlərinə düşən vəzifələri həyata keçirməyə hazırdırlar.

İ.Kərimov şikayət hüququnun reallaşdırılmasında iki imkanın nəzərdə tutulduğunu bildirib: inzibati şikayət və məhkəməyə şikayət verilməsi: “Dairə seçki komissiyasının qərarından, öncə, Mərkəzi Seçki Komissiyasına, Mərkəzi Seçki Komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) isə apelyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər. Başqa sözlə, şikayət ilkin olaraq, yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, məhkəməyə şikayət edilə bilər. Maraqlı şəxslər mübahisələndirilən qərarın dərc edildiyi və ya alındığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər”.

Ali Məhkəmənin sədri deyib ki, ölkəmizdə ədalətli, şəffaf, azad seçkilərin keçirilməsi üçün bütün şərtlər və lazımi şərait mövcuddur.

## Bütün namizədlərin hüquqları bərabərdir

***“Bütün seçki iştirakçıları – prezidentliyə namizədliyi qeydə alınmış şəxslər və onların səlahiyyətli nümayəndələri – həmin hüquqlardan yararlana bilər. Məqsədimiz odur ki, bütün tərəflər öz hüquqlarını bilsinlər. Müraciətlər qanuna uyğun şəkildə ünvanlanmalıdır...”***

Bu fikirləri MSK sədri Məzahir Pənahov səsləndirib. O, əlavə edib ki, qanuna uyğun seçkidə iştirak edən bütün tərəflərə şikayət və müraciətlər üçün bərabər hüquqlar yaradılır”.

## Ekspert komissiyaları yaradılır

***“Növbədənkənar prezident seçkiləri ilə bağlı MSK-nın nəzdində 9, dairə seçki komissiyaları tərkibində isə 3 nəfərdən ibarət ekspert komissiyaları yaradılır. Komisiya üzvləri vətəndaşların seçki hüququnu pozan qərar, hərəkətsizlikdən, hərəkətlərdən verilən şikayətləri araşdıracaqlar”.***

Bu barədə Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova məlumat verib.

Katib qeyd edib ki, daxil olan şikayətlərdə qanunsuz hərəkətin məzmunu faktlarla əsaslandırılmalıdır. Hərəkətsizlik hər hansı seçki subyektinin qanunla üzərinə düşən vəzifəni icra etməməklə özünü ifadə edir. Belə olduğu halda bu barədə məlumat təqdim edilmiş şikayətdə öz əksini tapmalıdır.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Yüksələn və yeniləşən Azərbaycan



## 2023-cü ildə bütün sahələrdə irəliləyiş davam edib

(əvvəli 1-ci səhifədə)

Bütün bunlarla bərabər, ərzaq təhlükəsizliyinin təmin edilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi, ən vacib prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının gerçəkləşdirilməsi məsələləri qarşıya önəmli vəzifələr kimi qoyuldu. Cari büdcə siyasətinin formalaşmasında "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan hədəflər, Böyük Qayıdışa dair I Dövlət Proqramı və hərbi xərclərin maliyyə öhdəliyi də diqqət mərkəzində saxlanıldı.

Yeri gəlmişkən, əgər dövlət büdcəsi xərclərinin ÜDM-də payı 2017-ci ildə 25 faiz idisə, 2024-cü ildə 31 faizə yüksəlib və xərclərin həcmi 2 dəfədən çox artıb. Bu il üçün dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılıb ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə 282,5 milyon manat artıb. 2024-cü ildə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin cari xərclərinin təminetmə səviyyəsi isə 75 faizi keçib. Ümumiyyətlə, qeyri-neft sektoru üzrə büdcə gəlirləri son 7 ildə 2 dəfəyə yaxın yüksəlib.

Dövlət büdcəsinin xərcləri 2023-cü illə müqayisədə 138,2 milyon manat artırılaraq 36 milyard 763 milyon manat proqnozlaşdırılıb. Dövlət büdcəsi kəsirinin ÜDM-də payı isə 2,2 faiz nəzərdə tutulub. Bütövlükdə, 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 997 milyon manat, xərcləri isə 42 milyard 376 milyon manat proqnozlaşdırılıb.

Makroiqtisadi çərçivə proqnozlaşdırılan zaman "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ortamüddətli dövrdə iqtisadi artımla bağlı müəyyənləşdirilən hədəflər də nəzərə alınıb. Belə ki, iqtisadi artımın proqnozlaşdırılan orta illik tempi 2,9 faiz, həmçinin qeyri-neft sektoru üzrə 4,8 faiz planlaşdırılıb.

Müsbət makroiqtisadi göstəricilərdən biri inflyasiya tempinin azalmasıdır. Hökumətin antiinflyasiya tədbirləri, dünya ərzaq bazarlarında qiymətlərin enməsi, tədiyə balansının profisiti olmasının məzənnə sabitliyini dəstəkləməsi inflyasiya idxalına və bununla da inflyasiya səviyyəsinə azaldıcı təsir göstərib. Dövlət Statistika Komitəsinin ilkin rəqəmlərinə görə, 2023-cü ilin 11 ayında orta illik inflyasiya birrəqəmli – 9,4 faiz olub, illik inflyasiya 2,6 faiz təşkil edib.

Bu il isə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəsinin gerçəkləşdirilməsi, əhalinin real gəlirlərinin və alıcılıq qabiliyyətinin qorunması, habelə fiskal və monetar siyasətin koordinasiyası istiqamətində zəruri tədbirlər davam etdiriləcək.

Azərbaycanda aparılan sosial siyasət nəticəsində xalqımızın rifahı yaxşılaşıb, yoxsulluq səviyyəsi azalıb, yeni iş yerləri yaranıb. Dövlət başçısının strateji inkişaf kursunun uğurla icrası nəticəsində Azərbaycan 2002–2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Son illər ərzində regionlarda infrastruktur, kommunal, enerji, su, qazlaşma və digər sosial xidmət sahələrində keyfiyyətin yüksəldilməsi, məktəblərin və yolların təmiri və bu qəbildən olan məsələlərin həlli xüsusilə diqqətdə saxlanılıb. Rayon və şəhərlərimizdə su təchizatı sistemləri yenidən qurulub, şəhərlərimizə yeni mənbələrdən suyun verilməsi təmin edilib. Ümumiyyətlə, sadalanan istiqamətlərdə qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi üçün nəzərdə tutulan tədbirlər ardıcıl şəkildə həyata keçirilib.

Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunan ərazilərin yenidənqurulması və bərpası istiqamətində də mühüm layihələr reallaşdırılıb. Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 mlrd manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub.

Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün sonrakı illərdə 14,5 milyard manat vəsait nəzərə alınmaqla 2022–2026-cı illərdə ümumilikdə, təqribən, 30,5 milyard manat məbləğində vəsait tələb olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, verilən vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketi bölgənin sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir. Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə məskunlaşma prosesinin ilkin mərhələsinə start verilib, 2026-cı ilədək 34 min 500 ailənin və ya 140 min nəfərdən çox köçürülməsi nəzərdə tutulub.

Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərə Böyük Qayıdış Proqramına uyğun olaraq, ümumilikdə, 1202 ailənin köçürülməsi təmin olunub. Qarabağ iqtisadi rayonunun əraziləri – Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və bütövlükdə düşməndən təmizlənən rayon və şəhərlərin yerli xərcləri üzrə büdcədə 50 milyon manatdan artıq vəsait nəzərdə tutulub.

**Vaqif BAYRAMOV**
**XQ**

### Ekspert rəyi



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

2023-cü il Azərbaycan iqtisadiyyatında yeni istiqamətləri müəyyənləşdirdi. İşğaldan azad olunan ərazilərimizin iqtisadiyyata inteqrasiyası daha da genişləndi, qeyri-neft sekorunda böyük artımlar qeydə alındı. Dövlət Neft Şirkəti ilə Rumıniyanın "Romgaz" şirkəti arasında 2023–2024-cü illərdə Azərbaycandan bu ölkəyə qaz tədarükü ilə bağlı müqavilə imzalandı. Abşeron qaz-kondensat yatağı istismara verildi.

Hesabat ili iqtisadi artımla nəzərə çarpdı. 2023-cü ilin yanvar-noyabr aylarında 110 milyard 212 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox ÜDM istehsal olundu. Neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz azaldığı halda, qeyri-neft-qaz sahəsində 3,2 faiz artdı.

Ötən ilin yanvar–noyabr aylarında ölkəmizdən 15 milyard 99 milyon dollarlıq xam neft, 12 milyard 775 milyon dollarlıq təbii qaz ixrac olunub ki, 2022-ci ilin eyni dövründə bu rəqəmlər uyğun olaraq 18 milyard 318 milyon dollar, 14 milyard 807 milyon təşkil etmişdi.

Ölkədə maliyyə sektorundakı vəziyyətə gəldikdə isə xatırladaq ki, manat möhkəmlənməyə doğru meyil etsə də, sabit qalıb. Tədiyə balansının cari əməliyyatlar hesabında irihəcmli profisitlə (9 ayda 6,7 milyard dollar və ya ÜDM-in 12,5 faizi) əlaqədar olaraq ilin əvvəlindən bəri keçirilən valyuta hərraclarının 95 faizində təklif tələbi üstələyib.

Ümumiyyətlə, həyata keçirilən islahatlar ölkəmizi növbəti böyük dönüş astanasına gətirib. Yeni mərhələdə dayanıqlı inkişaf tədbirlərinin uğurla həyata keçirilməsi, o cümlədən iqtisadiyyatın innovativ üsullarla inkişaf etdirilməsi, qeyri-neft sektorunun şaxələndirilməsi, rəqəmsal ekosistemin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, habelə iqtisadi və sosial sahələrdə nəticəyönümlü islahatların davam etdirilməsi daha yüksək sosial-iqtisadi nailiyyətləri və artımı gerçəkləşdirəcək.

Beləliklə, dövlət başçısının xalqımızın rifahı və dövlətimizin qüdrətlənməsi naminə gördüyü böyük işlər Azərbaycan tarixinin parlaq səhifəsidir. Bu gün yeni strateji hədəflərə nail olmaq üçün bütün səmərəli artım mənbələrindən istifadəni dəyərləndirən Azərbaycan yeni reallıqlar şəraitində qalib və güclü iqtisadi potensialı olan dövlət kimi dünyada mövqelərini daim möhkəmləndirir. Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti bundan sonra da onilliklər ərzində xalqımızın rifahına böyük töhfə verəcək.

## "Əsrin müqaviləsi" ötən il ölkəmizə 7 milyard dollara yaxın gəlir qazandırıb

***2023-cü ildə Azərbaycan Dövlət Neft Fondu (ARDNF) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri–Çıraq–Günəşli" (AÇG) yataqlar blokundan 6 milyard 899,2 milyon ABŞ dolları məbləğində gəlir əldə edib. ARDNF-in məlumatına görə, bu, 2022-ci ilin göstəricisi ilə müqayisədə 2 milyard 989,8 milyon dollar və ya 30,23 faiz azdır.***



Xatırladaq ki, AÇG Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun kəşfiyyatı, işlənməsi və hasilatın bölgüsünə dair ilk müqavilə 1994-cü il sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. Həmin saziş yataqların 2049-cu ilin sonunadək işlənməsini nəzərdə tutur.

## BMT: Azərbaycan iqtisadi inkişaf yolundadır

***Birləşmiş Millətlər Təşkilatı (BMT) 2026-cı ilə qədər Azərbaycanın iqtisadi artım proqnozunu açıqlayıb. Belə ki, qurumun qlobal iqtisadiyyatla bağlı hesabatına əsasən, 2024-cü il üzrə Azərbaycanda ümumi daxili məhsulun artımı 2,6 faiz, 2025-ci ildə isə 2,8 faiz səviyyəsində proqnozlaşdırılıb. Sənəddə yola saldığımız 2023-cü il üzrə Azərbaycanda iqtisadi artımın 0,7 faiz təşkil etdiyi qeyd olunub.***



BMT-nin proqnozlarına əsasən, bu il Azərbaycanda orta illik inflyasiya 5,9 faizədək, 2025-ci ildə isə 3,9 faizədək azalacaq. Təşkilat ötən il üzrə inflyasiya proqnozunu isə 9,5 faiz müəyyən edib.

Xatırladaq ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin açıqladığı son göstəricilərə əsasən, 2023-cü ilin yanvar–noyabr aylarında ölkədə iqtisadi artım 0,8 faiz, inflyasiya isə 9,4 faiz təşkil edib.

**XQ**

# Bugünün Bakısından sabahın modern meqapolisinə

(əvvəli 1-ci səhifədə)




Paytaxtın yeni Baş Planında ətraf mühitin qorunması və ekoloji tarazlığın təmin edilməsi ilə bağlı bir sıra tədbirlər nəzərdə tutulur. İlk növbədə, mövcud neft-kimya məhsullarının istehsalı müəssisələrinin mərkəzdən kənara köçürülməsi və müvafiq şəkildə zonalaşdırılması təklif edilir. Bu baxımdan Səngəçal və Ələt qəsəbələri ağır sənaye sahələrinin yerləşdirilməsi üçün əlverişli hesab olunur. Hazırda bu qəsəbələrdə neft və neft-kimya məhsulları terminalı kimi müəssisələr fəaliyyət göstərir. Eyni zamanda, burada neft-kimya və neft məhsulları (dövlət ehtiyatları daxil olmaqla), mayeləşdirilmiş qaz, həmçinin partlayıcı maddələr və zəhərli məhsullar üçün anbarlar mövcuddur.

Bundan əlavə, paytaxtın ayrı-ayrı ərazilərində ekoloji cəhətdən təmiz enerji istehsalı müəssisələrinin yaradılması nəzərdə tutulur. Baş Plana əsasən, 2040-cı ilə qədər Ələt, Lökbatan, Sabunçu və Mərdəkan alt-mərkəzlərində 2650 hektar ərazidə qoyuluş gücü 1200 meqavat olan bir külək və üç günəş elektrik stansiyasının inşası, sonrakı dövrdə isə həmin ərazilərdə bərpaolunan enerji təsərrüfatlarının inkişafı üçün əlavə 3313 hektar torpaq sahəsinin ayrılması planlaşdırılır.

2040-cı ilədək paytaxtın Sabunçu rayonunda Eko-Sənaye Parkı yaradılacaq. Baş Planda qeyd olunduğu kimi, göllərin və torpağın ekoloji təmizlənməsi tədbirləri çirklənmiş torpaqların saxlanması və texniki emalı və təmizlənməsi üçün böyük ərazi sahələrinin ayrılmasını şərtləndirəcək. Böyükşor gölünün şimalında, "Təmiz şəhər" ərazisinin yaxınlığında yaradılması planlaşdırılan park eko sənaye sahəsi üçün vahid mərkəz formalaşdırmağa və bu sahədə fəaliyyət göstərən müxtəlif müəssisələr arasında əlaqələndirməni təmin etməyə imkan verəcək.

Baş Planda paytaxt ərazisində yaşıllıq sahələrinin artırılması ilə bağlı konkret tədbirlər də nəzərdə tutulur. Belə ki, 2040-cı ilədək Bakıda təbii və açıq yaşıllıq ərazilərin əlavə olaraq 9 min 370 hektar artırılması tələb olunur. Baş Plan çərçivəsində şəhərin yarımsəhra landşaft xüsusiyyəti və iqlim şəraiti, həmçinin güclü küləklər və suvarma üçün su ehtiyatlarının çatışmazlığı nəzərə alınmaqla kiçik və ya orta ölçülü yaşıllıqlar yaradılacaq.

Bundan başqa, şəhərdə alçatan yaşıllıqların payının artırılması hədəfinə və Baş Planın təkliflərinə uyğun olaraq Xocəsən gölü ətrafında təxminən 500 hektar ərazidə geniş ictimai parkın salınması planlaşdırılır. Həmin park ətrafdakı sıx məskunlaşmış yaşayış məntəqələrinə xidmət edəcək və Xocəsən gölünün ekoloji təmizlənməsinə təkan verəcək. Eyni zamanda, Xocəsən gölünün yaxınlığında əsas yerli bitki növlərinin yetişdiriləcəyi və köçəri su-bataqlıq quşlarının miqrasiya məskəni olacaq yeni Nəbatat Parkının yaradılması nəzərdə tutulur.

2040-cı ilədək paytaxtın yol-nəqliyyat infrastrukturunun imkanlarının genişləndirilməsi ilə bağlı son dərəcə vacib tədbirlər həyata keçiriləcək. Baş plana əsasən, şəhərdə nəqliyyat sıxlığının və tıxacların azaldılması məqsədilə dairəvi metro şəbəkəsinin tamamlanması planlaşdırılır. Əks istiqamətlərdə də eyni vaxtlı hərəkətə imkan verən dairəvi metro şəbəkəsi yaradılacaq, relsli nəqliyyatın şəhərin şərq hissəsini tam əhatə etməsinə nail olunacaq, metro əlaqəsinə əsaslanan yeni tranzit qovşaqları yaradılacaq, paytaxtın yeni inkişaf edən əraziləri ilə metro əlaqəsi təmin olunacaq. Bununla yanaşı, 2040-cı ilədək hava limanı ərazisinə gediş-gəlişin 30 faizinin dəmir yolu nəqliyyatı hesabına təmin edilməsi nəzərdə tutulur.

Qarşıdakı illərdə Bakıda tramvay və metrobus ictimai nəqliyyat növlərinin yaradılması da nəzərdə tutulur ki, bu da xərclər və icra müddəti baxımından ən perspektivli alternativ dəmir yolu şəbəkəsinin yenidən qurulması və şəhər daxilində genişləndirilməsi hesabına mümkün olacaq. Bununla, həm də paytaxtın ictimai nəqliyyat sisteminin səmərəli fəaliyyəti (rentabelli, yüksək tutumlu, sürətli, rahat, etibarlı, dəqiq, əhatə dairəsi geniş və s.) təmin ediləcək.

2040-cı ilədək Bakıda küçə-yol şəbəkəsinin uzunluğu, təqribən, 368,7 kilometrədək artırılacaq ki, bu da ümumi şəbəkənin 2300 kilometrdən 2668 kilometrə çatdırmağa imkan yaradacaq. Sənədə əsasən, paytaxtın mərkəzi ərazisində nəqliyyat sıxlığının azaldılması, şəhərin şərq və qərb hissələri arasındakı nəqliyyat yerdəyişmələri zamanı əsas nəqliyyat axınlarının mərkəzə daxilolmadan şəhərkənarı həlqəvi magistrallara çıxışlarının təmin edilməsi, habelə mövcud yolların perspektivdə ifrat yüklənmələrinin qarşısının alınması məqsədilə yeni alternativ yol infrastrukturlarının yaradılması nəzərdə tutulub.

Bütövlükdə isə, 2040-cı ilədək Bakı şəhərinin inkişafı üçün 93,6 milyard manat məbləğində vəsait tələb olunur. Baş Plana əsasən, bu vəsait 5 istiqamətdə tədbirlərin həyata keçirilməsinə yönəldiləcək. Şəhər ərazisinin inkişafı üçün 47,6 milyard manat, nəqliyyat infrastrukturunun inkişafı üçün 16,9 milyard manat, mühəndis-kommunikasiya sistemlərinin inkişafı üçün 15,32 milyard manat, bərpaolunan enerji mənbələrinin inkişafı üçün 4,3 milyard manat və ətraf mühitin qorunması tədbirləri üçün 9,5 milyard manat məbləğində vəsait tələb olunur. Həmin vəsaitin 60,5 milyard manatı dövlət, 33,1 milyard manatı isə özəl investisiyalar hesabına qarşılanacaq.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 507** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 957 nömrəli Fərmanının 5.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşlarının (Xidmətdən pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla) və onların ailə üzvlərinin sanitar-epidemioloji, ambulator-poliklinik və stasionar yardım üzrə tibb xidmətləri ilə təmin olunması "Hərbi qulluqçuların statusu haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilsin.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar müvafiq vəsaitin hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin saxlanılması xərclərinin tərkibində nəzərdə tutulmasını təmin etsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 508** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 730-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1344; 2021, № 11, maddə 1294) ilə təsdiq edilmiş "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar təmsilçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi təmsilçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya təmsilçi tərəfindən təmin edilir.".

**2.** 2.4-cü bəndə "gec olmayaraq" sözlərindən sonra "(bu Qaydanın 2.2-1-ci bəndinin tələbi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**3.** 3.1.1-ci yarımbəndə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Qaydanın 2.2-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 509** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 655; 2022, № 5, maddə 552; 2023, № 1, maddə 126; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 oktyabr tarixli 363 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.8. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla, ərizəyə aşağıdakı sənədlər əlavə edilir:".

2. Aşağıdakı məzmunda 2.8-1-ci bənd əlavə edilsin:

"2.8-1. Dövlət ekoloji ekspertizasının keçirilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar sifarişçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

3. 2.12-ci bənd üzrə:

3.1. birinci cümləyə "sənədlərin" sözündən sonra "(bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

3.2. üçüncü cümləyə "barədə" sözündən sonra "(bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 510** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 360 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 oktyabr tarixli 2335 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 360 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1811; 2020, № 11, maddə 1408; 2021, № 7, maddə 869) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** "11" rəqəmləri "9" rəqəmi ilə əvəz edilsin.

**2.** "Kollegiyanın üzvləri" bölməsinin birinci abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 511** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***"Müəssisələrin mülkiyyətində (balansında) olan mülki müdafiə təyinatlı əmlakların siyahısı"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Müəssisələrin mülkiyyətində (balansında) olan mülki müdafiə təyinatlı əmlakların siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 512** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturunun təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və bəzi qərarlarının ləğvi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 10 dekabr tarixli 1900 nömrəli Fərmanının 2-ci hissəsinin, "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 2022-ci il 10 dekabr tarixli 3643 nömrəli Sərəncamının 3.2-ci bəndinin və "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2023-cü il 25 iyun tarixli 2199 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 119 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 5, maddə 360; 2001, № 10, maddə 663; 2003, № 6, maddə 342; 2005, № 6, maddə 541; 2006, № 5, maddə 463; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1369; 2013, № 10, maddə 1199; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2018, № 12 (II kitab), maddə 2736; 2021, № 7, maddə 871, № 10, maddə 1195; 2022, № 4, maddə 413, № 8, maddə 974; 2023, № 3, maddə 431) ilə təsdiq edilmiş "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"nin III hissəsinin iyirmi birinci abzasında "rayon (şəhər) gənclər və idman idarələri" sözləri "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Bakı Şəhər Gənclər və İdman İdarəsi və regional idarələri" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 637; 2001, № 10, maddə 663; 2004, № 3, maddə 193; 2005, № 1, maddə 49, № 6, maddə 558; 2006, № 4, maddə 370, № 5, maddə 463, № 9, maddə 822; 2009, № 1, maddə 32; 2012, № 5, maddə 482; 2014, № 11, maddə 1507; 2018, № 8, maddə 1817; 2021, № 10, maddə 1199; 2022, № 11, maddə 1346) ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 3.5.6-cı yarımbəndinin ikinci cümləsində "yerli gənclər və idman idarəsinə" sözləri "həmin Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsinə və regional idarələrinə" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 572, № 7, maddə 642; 2007, № 5, maddə 556, № 8, maddə 850, № 11, maddə 1172, № 12, maddə 1342; 2011, № 1, maddə 57; 2012, № 1, maddə 43, № 5, maddə 490; 2013, № 3, maddə 345; 2016, № 4, maddə 802, № 11, maddə 1931; 2018, № 5, maddə 1113; 2021, № 10, maddə 1188; 2022, № 1, maddə 54) aşağıdakı dəyişikliklər edilsin:

3.1. preambulasında "aparatının işçilərinin say həddinin" sözləri "işçilərinin ümumi say tərkibinin" sözləri ilə əvəz edilsin;

3.2. 2-ci hissəsinin "Kollegiyanın üzvləri:" bölməsinin yeddinci abzasından "Baş" sözü çıxarılsın.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 6, maddə 686, № 7, maddə 810, № 8, maddələr 974, 1024, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583, № 7, maddə 1075, № 10, maddələr 1437, 1440; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 dekabr tarixli 462 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın "II. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları:" bölməsinin 18.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"18.1. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin:

18.1.1. Bakı Şəhər Gənclər və İdman İdarəsi

18.1.2. Regional idarələri".

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 10, maddə 1306, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 695, № 11, maddə 1280, № 12, maddə 1508; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 5, maddə 577, № 6, maddə 686, № 7, maddə 811, № 8, maddə 1023, № 9, maddə 1083, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583, № 7, maddə 1075, № 8 (II kitab), maddələr 1244, 1277, № 10, maddə 1440; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 dekabr tarixli 462 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan:" hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan:

Bakı Şəhər Gənclər və İdman İdarəsi

Regional idarələr".

**6.** "Bədən tərbiyəsi və idmanla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1073; 2010, № 4, maddə 354; 2014, № 9, maddə 1137; 2016, № 9, maddə 1585; 2017, № 3, maddə 495, № 4, maddə 643; 2020, № 10, maddə 1294; 2021, № 9, maddə 1087; 2022, № 8, maddə 1023; 2023, № 9, maddə 1323; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 noyabr tarixli 404 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş "Hüquqi şəxs statusu olmayan idman klubu haqqında Nümunəvi Əsasnamə"nin 1.4-cü bəndinin beşinci abzasında "müvafiq şəhər (rayon) gənclər və idman baş idarəsində (idarəsində)" sözləri "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Bakı Şəhər Gənclər və İdman İdarəsində və regional idarələrində" sözləri ilə əvəz edilsin;

6.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları və idman hakimlərinin təsnifat dərəcələri" üzrə:

6.2.1. 2-ci hissənin on üçüncü abzasında "şəhər (rayon) gənclər və idman baş idarələri (idarələri)" sözləri "Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsi və regional idarələri" sözləri ilə, on dördüncü abzasında "Bakı şəhər Gənclər və İdman Baş İdarəsi" sözləri "Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsi" sözləri ilə əvəz edilsin;

6.2.2. 4-cü hissənin səkkizinci abzasında "şəhər (rayon) gənclər və idman baş idarələri (idarələri)" sözləri "Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsi və regional idarələri" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1242; 2012, № 3, maddə 260; 2013, № 3, maddə 346; 2016, № 1, maddə 181; 2019, № 1, maddə 147, № 5, maddələr 937, 955, 977; 2022, № 7, maddə 818; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 noyabr tarixli 408 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "II. Təsərrüfathesablı qurumlar:" bölməsinin 32-ci və 33-cü hissələrindən "Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin" sözləri çıxarılsın.

**8.** "Azərbaycan Respublikasının şəhər və rayonlarında və Naxçıvan Muxtar Respublikasında Gənclər və İdman Baş İdarələri və idarələrinin ştat vahidlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 16 mart tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 756; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 23 oktyabr tarixli 227 nömrəli Qərarı) ləğv edilsin.

**9.** "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin bəzi məsələləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 noyabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1191) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Ədəbiyyat Fondunun sənətə xidmət missiyası

**Artıq tarixə qovuşmuş 2023-cü ildə məhsuldar çalışmaları ilə seçilən qurumlardan biri də Azərbaycan Ədəbiyyat Fondu olub.**




Azərbaycan Yazıçılar Birliyi (AYB) İdarə heyətinin üzvü, Avrasiya Millətlər Assambleyası Ədəbiyyat Şurasının həmsədri, tanınmış yazıçı Varis Yolçiyev aprel ayında Fonda baş direktor təyin edildəndən sonra orada əsl canlanma yaranmasına nail olunub. İnamla demək olar ki, ədəbiyyatımızın beynəlxalq miqyasda təmsil olunmasına, xarici ölkələrdə azərbaycanlı müəlliflərin kitablarının nəşrinə, festival və müsabiqələrdə iştirakına dəstəyi, ədəbiyyat festival və forumların keçirilməsinə, yazarların maddi şəraitlərinin yaxşılaşdırılmasına xidməti ehtiva edən bu qurum öz adını layiqincə doğruldur.

Bizimlə söhbətində ötən ilin uğurlarından bəhs edən Varis Yolçuyevin bildirdiyinə görə, Fondun fəaliyyəti ilk növbədə zamanın çağırışlarına müvafiq olaraq, hazırlanan layihələrin icrası ilə bağlı olub.

İlk böyük tədbir 2 gün ərzində Qubada gerçəkləşib. Ölkənin ünlü qələm sahibləri Şahdağın ətəklərində – əsrarəngiz təbiətin qoynunda toplaşaraq, "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" mövzusunda forum keçiriblər. Konfrans dünya şöhrətli dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilib. Ədəbiyyat Fondunun direktorunun təqdimatından sonra AYB sədri, Xalq yazıçısı Anar Ulu öndər haqqında özəl xatirələrini danışıb. Qeyd edilib ki, Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycan ədəbiyyatı mükəmməl tarixi yol keçərək bugünkü səviyyəsinə gəlib çatıb. Forumda maraqlı məruzələr dinlənilib və AYB-nin Heydər Əliyevə həsr etdiyi "Əbədi ömrün 100 ili" kitabının təqdimatı olub.

Növbəti ayda AMEA-nın Ədəbiyyat İnstitutunda Azərbaycan Ədəbiyyat Fondunun, AMEA-nın, Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) və Türk Ağsaqqalları Birliyinin (TAİB) təşkilatçılığı ilə "Türk dünyasının ortaq ədəbiyyatı" mövzusunda konfrans keçirilib. "II Türk dünyası Ədəbiyyat və Kitab Festivalı" çərçivəsində baş tutan tədbirdə vurğulanıb ki, Türk dünyasının ortaq ədəbiyyatının yaradılması həm ilk olaraq bu təşəbbüsdə bulunan Türkiyə və Azərbaycanı, həm də sonradan təşəbbüsə qoşulan Özbəkistan, Qırğızıstan və Qazaxıstanı əhatə eləyib. Hazırda bu sahədə TÜRKSOY, Beynəlxalq Türk Akademiyası kimi təşkilatlar gərgin əmək sərf edirlər. Ötən ilin əvvəllərində Ankarada yaradılan və AYB sədri Anarın fəxri sədrlik etdiyi Türk Xalqları Ədəbiyyat Birliyinin yaranması isə bu səylərin zəruri nəticəsidir. Konfransda tanınmış türkoloqlar iştirak ediblər.

"Azərbaycan Ədəbiyyatı dünya müstəvisində" adlı dinləmə isə noyabrda Bakı Ekspo Mərkəzində Fondun AYB-ni təmsil etdiyi 9-cu Beynəlxalq Kitab Sərgisi çərçivəsində baş tutub. Orada Azərbaycan yazıçılarının kitabları, həmçinin AYB-nin "Ulduz", "Qobustan", "Literaturnıy Azerbaydjan", "Dünya ədəbiyyatı" kimi nəşrləri nümayiş olunub. Yazıçılar gün ərzində öz oxucuları ilə görüşərək, onlar üçün avtoqraflar yazıblar. "Xudafərin" təqdimat zonasında keçirilən paneldə maraqlı çıxışlar olub.

Daha öncə Cəfər Cabbarlı adına Gənclər Kitabxanasında Azərbaycan Ədəbiyyat Fondu və "Azərbaycan–Türkiyə Sosial Tərəqqiyə Yardım" İctimai Birliyinin təşkilatçılığı ilə "Müharibə dövrü ədəbiyyatı" mövzusunda dinləmələr keçirilib. Başlıca amil o olub ki, bugünkü zəfərimizin gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynayan keyfiyyətli ədəbi nümunələrin ortaya qoyulması zəruridir, eləcə də gənclərin vətənpərvərlik ruhunda, torpaqlarımızın bütövlüyü uğrunda mübarizə ruhunda tərbiyə olunmasında dövlət siyasəti ilə paralel olaraq, milli ədəbiyyatın da mühüm rolu var. Məhz Azərbaycan ədəbiyyatı xalqımızın Vətən müharibəsində tarixi Zəfər qazanmasına mənəvi stimul verib.

Akademik Feyzulla Qasımzadənin 125 illiyi münasibətilə AMEA ilə birgə konfrans, Mədəniyyət nazirliyi ilə birgə ədəbiyyatın kinoya transferi mövzusunda dinləmələr, məşhur "Yazıçı" Nəşriyyatının fəaliyyətinin bərpası, Xalq yazıçısı Anarın 85 illiyi münasibətilə "Ulduz" jurnalı ilə birgə hekayə müsabiqəsi, Mədəniyyət Nazirliyi ilə "Mütaliə mədəniyyətinin formalaşdırılması" adlı layihənin icrası və digər bu kimi tədbirlər ötən təqvim ilinin yaddaqalan səhifələrini təşkil edib.

Onu da qeyd edək ki, sentyabrın əvvəllərində ölkəmizdə ilk dəfə keçirilən Azərbaycan Dili və Ədəbiyyatı Forumunda Fond yaxından iştirak edib. Forum Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə gerçəkləşdirilib. Əhatə dairəsinə və iştirakçı tərkibinə görə ölkəmizdə bir ilk olan forumda bildirilib ki, milli kodların daşıyıcısı olan dil milli kimliyin qorunması və gələcək nəsillərə ötürülməsi vasitəsidir və onun təəssübünü, ilk növbədə, ədəbiyyat adamları çəkməlidirlər. Ədəbiyyat dilin inkişaf dinamikasına uyğunlaşmalı, dilin inkişaf təmayüllərini müəyyənləşdirməli və istiqamətləndirməlidir.

AYB-nin Ədəbiyyat Fondu bu il də milli mədəniyyətimizə, mənəviyyatımızın daha da gücləndirilməsinə xidmət edən bir sıra maraqlı tədbirlərlə müqəddəs missiyasını davam etdirmək əzmindədir.

*Ə. NƏCƏFXANLI*
*XQ*



# Əməkdar artist Aygün Bəylər son mənzilə yola salınıb

**Yanvarın 8-də milli musiqi sənətinin istedadlı nümayəndəsi, Əməkdar artist Aygün Hümbətovanın (Bəylər) cənazəsi son mənzilə yola salınıb.**

Mərhumun cənazəsi Suraxanı rayon Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayında matəmsayağı bəzədilmiş postament üzərinə qoyulmuşdu.

Salonda həzin matəm musiqisi səslənirdi.

Sənətkarın tabutu önünə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın adından əklil qoyulmuşdu. Cənazənin ətrafına hökumət qurumları və müxtəlif kollektivlər adından da əkliIlər düzülmüşdü.

Aygün Bəylərin yaxınları, sənət dostları, tanınmış mədəniyyət və incəsənət xadimləri axın-axın mədəniyyət sarayının binasına gəlir, istedadlı sənətkara son borclarını verirdilər.

Vida mərasimində Mədəniyyət Nazirliyinin şöbə müdiri Aynur Kərimova Əməkdar artist Aygün Bəylərin yaradıcılığından danışıb: "Həyatını Azərbaycan musiqi sənətinə həsr etmiş görkəmli sənətkarı son mənzilə yola salırıq. Onun uzun müddətdir xəstəlikdən əziyyət çəkdiyini bilirdik. Əməkdar artistin səhhəti ilə əlaqədar məsələlər ötən müddət ərzində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, fond tərəfindən nəzarətə götürülmüşdü və müalicəsinə zəruri dəstək göstərilirdi. Müalicəsinə yerli həkimlərlə yanaşı, xarici mütəxəssislərin də cəlb olunduğu Aygün Bəylər bir müddət əvvəl müvafiq müayinələrdən keçmək məqsədilə Türkiyəyə getmişdi. Lakin həkimlərin səylərinə baxmayaraq, Aygün Bəylərin səhhətində ağırlaşma baş vermiş və müğənninin həyatını xilas etmək mümkün olmamışdır. İnanırıq ki, onun ifaları əbədi yaşayacaq. Allah rəhmət eləsin!".

Xalq artisti, bəstəkar Aygün Səmədzadə mərhum sənətkar Aygün Bəylərin vaxtsız dünyadan köçməsinin mədəniyyətimiz üçün çox ağır itki olduğunu söyləyib: "Bizim onunla çox yaxşı münasibətimiz olub. Mənim mahnılarımı ifa edib. Son dəfə konsertindən əvvəl "Tut ağacı" mahnısı ilə bağlı danışmışdıq. Aygün Bəylər haqqında çox danışa bilərəm, amma hazırda çətindir. Onun yerini heç kəs tuta bilməz".

Xalq artistləri Mənsum İbrahimov, Həmidə Ömərova, Əməkdar incəsənət xadimləri Cavanşir Quliyev, Aqil Məlikov, Əməkdar mədəniyyət işçisi Ədalət Dəlidağlı, Əməkdar artist Rəşad İlyasov, bəstəkar-pianoçu, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü Pikə Axundova və başqaları vida mərasimində çıxış edərək Aygün Bəylərin Azərbaycan musiqisinə sonsuz sevgisindən, milli musiqi irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılması üçün gördüyü böyük işlərdən danışaraq, onunla bağlı xatirələrini bölüşüblər.

Mərhumun ailəsi adından çıxış edən Zümrüd Hümbətova bacısının xatirəsinə göstərilən hörmət və ehtirama görə Heydər Əliyev Fonduna dərin minnətdarlığını bildirib.

Sonra sənətkarın cənazəsi son mənzilə yola salınıb.

Mərhum Suraxanı kənd qəbiristanlığında torpağa tapşırılıb.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Yurdun dünya sorağı

# Tolerantlığın fotomənzərəsini yaradan sənətkar

**Etibar Fikrət oğlu Cəfərov Bakıda dünyaya göz açıb. Əvvəllər təbii bitkilərlə hazırlanmış akvarium dizaynı ilə məşğul olub, bir çox beynəlxalq yarışlarda doğma Azərbaycanı uğurla təmsil edib. Amma xarici ölkələrə səfərləri zamanı fotoqrafiyaya böyük marağın olduğunu görüb və o da bu sahəyə meyil salıb. Bu yola çıxınca isə Azərbaycanı bütün dünyada daha layiqli təmsil etməyi qərara alıb.**

2012-ci ildə "Azərbaycanın rəngləri" adlı layihəyə start verən Etibar Cəfərov dogma yurdumuzun memarlığını, milli adət-ənənələrini, mətbəxini foto-kameranın yaddaşında əbədiləşdirərək beynəlxalq miqyasda təbliğ edib. İlkin olaraq Azərbaycandakı məscidləri çəkib. 10 il müddətində layihəsini tam ərsəyə gətirməklə, heyrətamiz fotoşəkillərdən ibarət 7 kitab nəşr etdirib.

Azərbaycanın multikultural və tolerant dövlət olmasına baxmayaraq, düşmənlərimiz dünyada belə bir yanlış təsəvvür yaratmaq istəyirlər ki, guya, ölkəmizdə milli, dini azlıqlar sıxışdırılır, etnik təmizləməyə rəvac verilir. Etibar Cəfərov buna cavab olaraq, foto-sübutlarla göstərib ki, hər bir xalqın Azərbaycanda öz dinini, adət və ənənələrini qoruyub inkişaf etdirmək imkanı var və onlar burada firavan yaşayırlar. Onun bütün işlərində xalqımızın qədim mədəniyyətini, qonaqpərvərliyini, müxtəlif millətlərə əziz yurd-yuva olduğunu diqqətə çatdırıb. Fotoqraf respublikanın bölgələrini gəzərək yerli adətləri, milli geyim və digər atributları öz kamerasının yaddaşına köçürüb və dünyanın müxtəlif ölkələrində qatıldı mötəbər sərgilər vasitəsilə dünyaya çatdırıb.

Onun xaricdə fərdi foto sərgiləri də açılıb. Buna misal olaraq, Los-Anceles, Helsinki, Stokholm və s. şəhərlərdəki sərgilərini misal çəkmək olar. Həmin tədbirlərdə təqdim etdiyi kitablar da böyük marağa səbəb olub. Azərbaycanın Almaniyadakı səfirliyindən Etibar Cəfərova ölkəmizdəki tolerantlıqla bağlı çəkilişlər etmək təklif olunub. İlk olaraq dağ yəhudilərinin həyat tərzini çəkib, onların adətləri, dini ibadətləri dərindən öyrənib və yekunda çəkilən fotolardan ibarət "Azərbaycanda yəhudi irsi" adlı kitabını ərsəyə gətirib. 2023-cü ildə Türkiyədə alman və ingilis dillərində çap olunan həmin kitabın Berlində təqdimat mərasimi və müəllifin fotolarından ibarət sərgisi böyük uğurla keçib.



Etibar Cəfərov tolerantlıq mövzusunun davamı olaraq Azərbaycandakı xristianları seçib. Hər cür çətinliyə qatlaşaraq, foto-kamerası ilə xaçpərəstliyin müxtəlif qollarına nüfuz etməyə çalışıb. İki illik gərgin əməkdən sonra "Azərbaycanda xristian həyatı" adlı kitabını buraxıb. Ona daha maraqlı gələn etnik qrupların foto çəkilişlərinə isə 2023-cü ilin sonlarında başlayıb. Elə ilk çəkilişlərindən ona fərəhlənib ki, ölkəmizdəki müxtəlif etnik qruplardan bəhs edən kitabın hazırlanmasına avarlar, ingiloylar böyük maraq göstəriblər. Onlar öz adət-ənənələrini, milli yeməklərini, geyimlərini fotoqrafa olduğu kimi çatdırır, musiqi və rəqslərini nümayiş etdirib çəkilişlərə ürəklə qatılır və hərtərəfli dəstək olurlar.




Fotoqraf 10 il müddətində çəkdiyi ən maraqlı kadrlardan, 10 minə yaxın fotodan 200-ünü seçərək ingilis dilində hazırladığı "Azərbaycan multikulturalizminin rəngləri" kitabının nəşrində istifadə edib. Bu kitab Etibar Cəfərovun yaradıcılığının şah əsərinə çevrilib desək, yanılmarıq. Müasir dövrdə informasiya müharibəsi şəraitində tolerantlığı dəstəkləyən, ərazisində müxtəlif dinlərə mənsub neçə-neçə xalqın yaşadığı Azərbaycan üçün bu çox önəmli addım sayılır.

*Ziyarət CABAROVA,*
*sənətşünas, Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi*

# Özbəkistanda Azərbaycan dünyası

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti ilə birgə "Nizami Gəncəvi yaradıcılığında türkçülük məfkurəsi" adlı beynəlxalq elmi konfrans keçirib.**



Məclisdə Azərbaycan, Türkiyə və Özbəkistanın nizamişünas alimləri, ölkə ali məktəblərinin professor-müəllim heyəti, tədqiqatçılar, Nizami Gəncəvinin yaradıcılığı ilə maraqlanan müəllim və tələbələr iştirak ediblər. Çıxış edənlər Nizami Gəncəvi irsinin tədqiqi və təbliği istiqamətində bir sıra maraqlı təklif irəli sürüblər.

Konfransda AMM nəzdində Nizami Gəncəvi irsinin dünyada tanıdılması, tədqiqi və bu istiqamətdə təbliğat işlərinin həyata keçirilməsi məqsədilə Türk dünyası nizamişünas alimlərindən ibarət Beynəlxalq Nizami Gəncəvi Elmi-Tədqiqat Cəmiyyəti (ETC) təsis edilib, qurumun fəaliyyət strategiyası qəbul olunub. Cəmiyyətin Azərbaycan, Özbəkistan, Türkiyə elm xadimləri və alimlərindən ibarət idarə heyəti yaradılıb. DDÖDƏU-nun professoru Nurbay Cabbarov cəmiyyətin sədri, AMEA-nın Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov icraçı katib seçiliblər.

***

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov "Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin (AÖDC) icrası direktoru Erkin Nuriddinovla görüşüb.**



Söhbət zamanı Azərbaycanla Özbəkistan arasında mədəni əlaqələrin daha da möhkəmləndirilməsinə dair 2024-cü il üzrə görüləcək işlər müzakirə olunub. Görüşdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi, bu il AÖDC nümayəndə heyətinin Azərbaycana səfəri, universitetlərimiz arasında əməkdaşlığın genişləndirilməsi, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Gəncə Dövlət Universiteti ilə birgə layihələrin reallaşdırılması, bu ildən başlayaraq, Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində Azərbaycan dili və ədəbiyyatı fənninin tədrisi, bu məqsədlə Azərbaycandan müvafiq pedaqoqların dəvət olunması, qarşılıqlı mühazirələrin təşkili məsələləri diqqət mərkəzində olub.

Özbəkistanda bu il dövlət səviyyəsində keçiriləcək Azərbaycan mədəniyyət günlərinə dair təşkilati işlərin həlli, bu ölkədə Nizami Gəncəvi, Məhəmməd Füzuli və Maqsud Şeyxzadə irsinin təbliği, onların əsərlərinin tərcümə və nəşr layihələrinin reallaşdırılması barədə fikir mübadiləsi aparılıb, bu tədbirlərin həyata keçirilməsi məsələləri razılaşdırılıb.

***

**Özbəkistanın kinematoqrafiya sahəsinin rəhbərləri və əməkdaşlarına-rejissor, operator və aktyorlara ölkənin yüksək mükafatları təqdim edilib. Kinematoqrafiya Agentliyinin (KA) "Kinematoqrafiya fədakarı" medalı ilə təltif olunanlar arasında Özbəkistan Milli Televiziya və Radio Şirkətinin rejissoru, tanınmış kinorejissor, soydaşımız Eldar Məmmədov da var.**



Təntənəli yığıncaqda medalı Eldar Məmmədova KA-nin direktoru Firdavs Abduxalikov təqdim edib. Bildirilib ki, Eldar Məmmədov 2023-cü ildə 7 sənədli film çəkib və 12 televiziya verilişi hazırlayıb. Ötən il rejissor Azərbaycanda yaradıcılıq səfərində olub. Füzuli şəhərində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə inşa olunan 960 nəfərlik məktəb binasının tikintisi haqqında "Dostluq rəmzi" adlı sənədli film çəkib. O, eyni zamanda, "Azad Şuşa" sənədli filmini ərsəyə gətirib. Eldar Məmmədov 177 sənədli, 30 bədii film və 200-dən çox televiziya verilişi hazırlayıb. Eldar Məmmədov 2022-ci ildə isə Özbəkistanın "Dostluq" ordeninə layiq görülüb.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Daşkənd**

BEYNƏLXALQ HƏYAT

# ABŞ: Ağ ev uğrunda yarışın fəal mərhələsi başlanır

**Artıq bu ay ABŞ-da noyabrda keçiriləcək seçkilərdə 2 əsas partiyanın – Demokrat və Respublikaçıların prezidentliyə irəli sürdüyü namizədlər üçün partiyadaxili səsvermə başlanacaq. Hər iki siyasi qüvvənin digər partiya üzvlərini xeyli qabaqlayan namizədləri var. Respublikaçılar üçün bu, qalmaqallı açıqlamalarına və 4 müxtəlif cinayət işi üzrə 90-dan çox ittihama baxmayaraq, populyarlığını qoruyub saxlaya bilən ekssentrik 77 yaşlı sabiq prezident Donald Trampdır. Demokratlar düşərgəsində isə lider 81 yaşlı hazırkı prezident Co Baydendir.**



İki siyasətçinin partiya dəstəyini müqayisə etsək, aydın olur ki, Co Baydenin üstünlüyü var. "RealClearPolitics"in anket nəticələrinə görə, seçkilərdə demokrat seçicilərin, təxminən, 70 faizi Co Baydeni dəstəkləməyə hazırdır. Respublikaçılar cəbhəsində isə Donald Tramp irəlidədir. Seçicilərin 63 faizi sabiq prezidenti dəstəkləyir. Ancaq noyabr ayında keçiriləcək seçkilərdə Tramp ilə potensial dueldə hazırkı prezident, anketlərin ortalama məlumatlarına görə, rəqibindən iki faiz bəndi geri qalır. Tanınmış tarixçi və iqtisadçı Neil Fergusona görə, seçki öncəsi demokratlar arasında Co Baydenlə bağlı "geniş narahatlıq" var. Buna görə də, Ferguson düşünür ki, demokratlar Baydeni dəstəkləsələr, Trampın qalib gəlmə şansı 50 faiz olacaq.

Sorğular da belə düşünməyə əsas verir. Məsələn, "McLaughlin & Associates"in sorğusuna əsasən, respondentlərin 47 faizi Ağ evin sabiq rəhbərinə, 44 faizi isə Baydenə səs verməyə hazırdır. "Hart Research Associates/Public Opinion Strategies"in araşdırmasında isə fərq daha da genişdir. Burada Tramp rəqibini 6 faiz qabaqlayır. Bundan əlavə, "Morning Consult" sorğusunun nəticələrinə görə, respublikaçı namizədə amerikalıların 47 faizi müsbət, 49 faizi isə mənfi yanaşır. Co Bayden daha pis nəticəyə malikdir, seçicilərin 45 faizi ona müsbət, 51 faizi isə mənfi yanaşdığını açıqlayır. Demək olmaz ki, amerikalılar hər iki namizədə güclü rəğbət bəsləyirlər, sadəcə, seçicilər hələ də Donalda Trampa bir az daha yaxşı münasibət göstərirlər.

Ekspertlər eyni fikirdədirlər ki, nəzəri cəhətdən respublikaçının seçkidə qalib gəlmək şansı var. Məsələn, amerikalı politoloq Malek Dudakov hesab edir ki, hazırda Tramp seçki yarışının aşkar lideridir. "Tramp son 20 sorğunun 16-da Baydeni qabaqlayır və onun ABŞ Prezidenti üzərindəki üstünlüyü getdikcə artır. Əvvəlcə, təxminən, 1–2 faiz idi, indi isə 4–5 faiz təşkil edir. Yəni, yaxın gələcəkdə seçkilər keçirilsəydi, Tramp böyük ehtimalla seçkilərdə qalib gələcəkdi. Lakin səsverməyə hələ 11 ay var, ona görə də vəziyyət dəyişə bilər".

Trampın üstünlüyündə təkcə Respublikaçılar Partiyası daxilindəki dəstək və ya ümumilikdə seçicilər arasında rəy mühüm rol oynamır. 2023-cü ilin yayından bəri siyasətçi bir sıra cinayət ittihamları ilə üzləşir, o cümlədən son seçkinin nəticələrini ləğv etmək cəhdi və 3 il əvvəl tərəfdarlarının Kapitoliyə hücumu ilə bağlı ittihamlarla qarşı-qarşıyadır. Dekabr ayına qədər siyahı onun Koloradoda ilkin seçkidən kənarlaşdırılmasını əlavə etdi ki, bu da onun, bütövlükdə, seçkilərdə iştirakını təhlükə altına qoya bilər.

*S.ELAY*
*XQ*

# Martin Ryanr – Azərbaycanda həbsdə olan Fransa casusu

**Fransa Xarici Kəşfiyyat Baş İdarəsinin Azərbaycanda apardığı casusluq fəaliyyətinə görə həbs olunmuş şəxslərdən birinin şəxsiyyəti məlum olub. Onun adı Martin Ryandır.**



Bu barədə erməni əsilli fransız jurnalist Leo Nicolian 07 yanvar 2024-cü ildə "X" (keçmiş Twitter) sosial platformasındakı rəsmi səhifəsində məlumat verib.

O qeyd edir ki, "Martin Ryan dekabrın 4-də Bakıda həbs edilib. Merkorama MMC-nin baş direktoru Martin Ryan casusluqda ittiham olunur. O, onu məxfi əməkdaşlığa məcbur edən, sonradan Bakıdan qovulmuş Fransanın 2 DGSE (Xarici Kəşfiyyat Baş İdarəsi) agenti tərəfindən istifadə (manipulyasiya) edilib".

Fransa vətəndaşı Martin Ryanın 04 dekabrda Fransa kəşfiyyatının xeyrinə casusluğa görə həbs olunmaqla, hazırda Bakıda həbsdə olduğu məlum olur.

Qeyd edək ki, daha əvvəl Qərb mətbuatında yayılmış məlumatlara əsasən, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin 2023-cü il dekabr ayının əvvəlində həyata keçirdiyi araşdırmalar və həbslər nəticəsində Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlara cəlb edilmiş Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsi Azərbaycanda ifşa olunub.

Qısa müddət ərzində bir qismi həmin vaxt və ya əvvəllər Azərbaycanda xidmət etmiş, bəziləri müxtəlif ölkələrdə və nüfuzlu beynəlxalq təşkilatlarda örtülü işi davam etdirən onlarla Fransa xəfiyyəsi aşkarlanıb.

Məlum olduğu kimi, 2023-cü il dekabr ayının 20-də Fransa Prezidenti Emmanuel Makron Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinin (DGSE) rəisi Bernar Emyeni vəzifəsindən azad edib. Daxili Təhlükəsizlik Baş İdarəsinə (DGSİ) rəhbərlik etmiş Nikolas Lerner isə Xarici Kəşfiyyat strukturuna yeni rəhbər təyin edilib.


Leo Nicolian
@NicolianLeo
Follow

#France 🇫🇷 #azerbaycan 🇦🇿 Martin Ryan détenu à #Baku depuis le 4 décembre,Le Dg de Merkorama LLC est accusé d Espionnage,il à été manipule par les 2 Agents #Dgse expulsés de @FranceBakou qui l ont obligé de collaborer,Négociations secrètes en cours.@afpfr @EmmanuelMacron @presidentaz @Elysee @azpresident @1VicePresident @Armees_Gouv @SebLecornu @gouvernementFR @Elisabeth_Borne @CNEWS @BFMTV @TF1Info @LCI @AZERTAC @aztvresmi @azertacfr @cbctvaz @DiasporaAz @AssembleeNat @francediplo @MinColonna @Mediapart @canardenchaine @Malbrunot @Europe1 @SudRadio @mfa_russia @AzerbaijanMFA @ItarTassRussia @RTenfrancais @RTLFrance @SputnikInt @MedvedevRussiaE @RTErdogan @POTUS @NikolPashinyan

Translate post

**XQ**

# Frans Bekkenbauer vəfat edib



**Futbol üzrə dünya çempionu Frans Bekkenbauer 78 yaşında vəfat edib. Bu barədə "Spiegel" qəzeti yazıb.**

Bekkenbauer Almaniya millisinin tərkibində 1974-cü ildə dünya, 1972-ci ildə Avropa çempionatının qalibi olub.

O, həmçinin 5 dəfə Almaniya çempionatının, 3 dəfə ABŞ çempionatının qalibi olub, 4 dəfə Almaniya Kubokunu qazanıb. Çempionlar Kubokunun 3 qat qalibidir. Bir dəfə isə Kuboklar Kuboku və Qitələrarası Kuboku başı üzərinə qaldırıb.

Bekkenbauer futbol tarixinin ən yaxşı müdafiəçilərindən biri hesab olunur. O, iki dəfə – 1974 və 1976-cı illərdə "Qızıl top"u qazanıb.



İDMAN

## Avropa xizək alpinizmi yarışı



**Fransanın Flaine bölgəsində xizək alpinizmi üzrə Avropa çempionatının açılış mərasimi keçirilib.**

Qış İdman Növləri Federasiyasından "XQ"yə bildiriblər ki, mərasimdə Xizək Alpinizmi üzrə Beynəlxalq Federasiyanın Avropa Konsulluğunun Prezidenti Günel Bədəlova çıxış edərək idmançılara uğurlar arzulayıb.

Azərbaycan milli komandasının da qatıldığı yarışda 22 ölkədən 225 idmançı iştirak edir. Ayın 12-nə kimi davam edəcək turnirdə Azərbaycan idmançıları yanvarın 10-da sprint, 11-də isə vertikal növlərdə mübarizə aparacaqlar.

## Milli futbolun məhsuldar oyunları

**2023/2024 mövsümünün ilk yarısında keçirilən oyunlarda ən çox qol vurulmuş qarşılaşmalar bəlli olub.**

"XQ" Peşəkar Futbol Liqasının (PFL) rəsmi saytına istinadla xəbər verir ki, 2023/2024-cü illər mövsümünün ən məhsuldar oyunlarında 10 qol qeydə alınıb. Azərbaycan Kubokunun "İrəvan" – "Araz-Naxçıvan" və II Liqanın "Göygöl" – "Şəmkir" matçlarının hər ikisində hesab 8:2 olub. Kubokda qonaqlar, aşağı liqada meydan sahibləri üstünlük qazanıblar. Oyunlarda iki dəfə 9 qol qeydə alınıb. Bu qarşılaşmalar Əvəzedicilər Liqası və II Liqada keçirilib. 10 oyun 8 qolla başa çatıb. Ümumilikdə, isə 14 dəfə qapıdan ən azı 8 top keçirilib.

## Azərbaycan boksunda rekord

**Boks Mərkəzində yeniyetmələr arasında Azərbaycan birinciliyinə start verilib.**

Yarışlara respublikanın müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən 74 komandanın 408 boksçusu qatılıb. Bu, ölkə çempionatlarında yeni rekorddur. Bunadək ən yaxşı göstərici ötən il 66 komandadan 326 idmançı olub.

Dəri əlcək ustaları yarışda 14 çəki dərəcəsi üzrə mübarizə aparacaqlar. Qaliblərin adına yanvarın 14-də aydınlıq gələcək.

*Leyla SABİRQIZI*
*XQ*

"Azərbaycan İlahiyyat İnstitutu"
Dinşünaslıq və İslamşünaslıq kafedralarına vakant dosent vəzifələrinə
MÜSABİQƏ ELAN EDİR

Dosent vəzifəsi tutmaq üçün müsabiqədə professorlar, dosentlər, elmlər doktorları və fəlsəfə doktorları (elmlər namizədləri) iştirak edə bilərlər.
Müsabiqədə iştirak etmək istəyən şəxslər rektorun adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- kadrlar uçotunun şəxsi vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
- dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı.
Sənədlər elan dərc olunduqdan sonra 1 (bir) ay müddətində qəbul edilir.
Qeyd – namizədlərin göstəriciləri vəzifənin tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti pozulduqda sənədlərin qəbulundan imtina olunur.
Telefon – (+ 994 12) 436 - 77 - 66.
Ünvan: AZ 1065, Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd Naxçıvani küçəsi, 29.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

Təsviri sənət və sənətşünaslıq fakültəsində vakant dekan vəzifəsini tutmaq üçün müsabiqə elan edir.
Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduqdan sonra 1 ay müddətində aşağıdakı sənədləri təqdim etməlidirlər:
1. Rektorun adına yazılmış ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Müvafiq struktur bölmənin inkişafı ilə bağlı fakültə dekanının platforması.
Qeyd – müsabiqə elan olunan müəssisədə çalışan şəxslər ərizə ilə birlikdə yalnız 4-cü və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər.
Ünvan – Bakı şəhəri, H.Əliyev prospekti 58.
REKTORLUQ

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
özünün inzibati binası üçün müxtəlif çıraq və drosellərin satın alınması məqsədilə
AÇIQ MÜSABİQƏ ELAN EDİR
Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 17-si saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu– (012) 404-37-00, daxili:1177
Ünvan– AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Mingəçevir Bazar" QSC səhmdarlarının nəzərinə!
28 fevral 2024-cü il saat 12.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:
1. "Mingəçevir Bazar" QSC-nin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.
Ümumi yığıncaqda səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakları vacibdir.
Telefon –( 02427) 5-62-49.
Ünvan– Mingəçevir şəhəri, H. Əliyev prospekti 53.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 002 (30405) 9 yanvar 2024-cü il, çərşənbə axşamı

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Astarada kənd yolu

**Astara rayonunun Düriyyə - Şümrüd avtomobil yolunun əsaslı təmirinə başlanılıb.**



Avtomobil Yolları Dövlət Agentliyi xəbər verir ki, ümumi uzunluğu 5 kilometr təşkil edən yolun eni 8 metrə qədər genişləndirilir, bura 4 metr hərəkət hissə və 2 metr çiyinlər daxildir.

Tikinti işləri çərçivəsində yol yatağının yararsız qruntu qazılaraq çıxarılır, kipləşdirmə işləri aparılır, zəruri yerlərdə müxtəlif diametrlərə malik yeni suötürücü dəmir-beton boruları quraşdırılır. Sözügedən yollarda işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək sürətlə aparılır.

Qeyd edək ki, yolların yenidən qurulmasında məqsəd yolboyu 2 yaşayış məntəqəsinin əhalisinin rahat gediş-gəlişini təmin etmək, yük və sərnişin daşımasını asanlaşdırmaqdır.

*XQ*

# Qocaman rəssamın "Zamanla dialoq"u

**Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı Tofiq Ağababayevin 95 illik yubileyinə və onun yaradıcılıq dünyasına həsr olunmuş " Zaman və dialoq" adlı sərgi çərçivəsində mühazirə keçirilib.**



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xanım Əsgərova bildirib ki, rəssamın ilk yaradıcılıq illəri şüşə servisləri və keramik əşyalarla bağlıdır: "Onun yaradıcılığının əsasını təşkil edən lirizm şüşə ilə yaratdığı sənət əsərlərində öz əksini tapır. Rəssamın 95 illiyinə həsr olunmuş sərgidə də dəzgah yaradıcılığı ilə yanaşı, şüşədən və keramikadan düzəldilmiş məhsulları da görə bilərik. Bütün bu əl işlərində milli xüsusiyyətlərimizi özündə daşıyan cizgilərin şahidi oluruq."

X.Əsgərova həmçinin Tofiq Ağababayevin Bakı şəhərinin baş rəssamı olduğu illər barədə söhbət açıb və sənətkarın paytaxtın gözəlləşməsi sahəsində bir çox uğurlu layihələrə imza atdığını söyləyib.

Qeyd edək ki, sərgidə Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xəzər Muzey Mərkəzinin kolleksiyasından rəssamın yaradıcılığının müxtəlif dövrlərində ərsəyə gətirdiyi 50-yə yaxın sənət əsəri nümayiş olunur. Burada, həmçinin təcrübəli fırça ustasının 1960-cı illər yaradıcılığına aid qrafika əsərləri, məşhur "İşığa doğru" tablosu, yüksək bədii ifadə tərzi ilə seçilən keramika nümunələri, milli folklor nümunələrini özündə əks etdirən "Döyüş", "Xalçasayağı", "Dəvə" və digər əsərləri sərgilənir. Sərgi Mədəniyyət Nazirliyi və Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə həyata keçirilir.

*Fidan SALMANOVA*
*XQ*

# Ötən ilin ən böyük kosmik kəşfləri

*(Əvvəli ötən sayımızda)*

## Ən isti yay

***Nyu-Yorkdakı Qoddard Kosmik Tədqiqatlar İnstitutunun alimləri 2023-cü ilin yayının 1880-ci ildən bu yana Şimal yarımkürəsində ən isti aylar olduğunu bildiriblər. Artıq qlobal iqlim dəyişikliklərinin fəsadları özünü göstərməkdədir.***




Tədqiqatçılar 1950–1980-ci illər arasındakı dövrdə planetin orta temperatur göstəricisini son illərin qlobal istiləşməsi ilə bağlı rəqəmlərlə müqayisə ediblər. Məlum olub ki, 2023-cü ildə orta temperatur təqribən 70 il əvvəlkindən 0,23 faiz yüksək olub. Təkcə ötən ilin avqust ayının temperaturu isə ümumi orta temperaturdan 1,2 dərəcə yüksək olub.

## Buzlaqların kiçilməsi

***NASA mütəxəssisləri və Kolorado Universitetinin Ekoloji Milli Mərkəzi kollektivinin birgə apardıqları tədqiqatlara əsasən Antarktidada buzlaqların sahəsi rekord səviyyədə azalıb.***



Sputniklər vasitəsilə alınan məlumata görə, ötən ilin 10 sentyabrına dəniz buzu cənub kontinentinin 16,96 milyon kvadratkilometr sahəsini təşkil edib. Bu, tarixdə ən aşağı göstəricidir. Planetimizdə iqlim dəyişikliklərini şərtləndirən amillərdən biri məhz şimal və cənub qütblərində "əbədi" buzların əriməsinin sürətlənməsidir. Göründüyü kimi, təbiətdə Əlahəzrət Zamandan başqa əbədi heç nə yoxdur.

## 371 gün kosmosda

***Amerikalı astronavt Frenk Rubio 2023-cü ili kosmosda keçirməli olub. Belə ki, o, 67-ci kosmik ekspedisiyada "Soyuz" kosmik gəmisindəki rusiyalı kosmonavtlar Sergey Prokopyevə və Dmitri Peteleinə qoşulub.***



Üçlük Yerə 6 aydan sonra qayıtmalı idi, lakin "Soyuz" gəmisinin istilik sistemindəki kapsulda sızma olduğu üçün amerikalı daha 6 ay kosmosda qalmalı olub.

Üç dost yalnız 2023-cü il sentyabrın 27-də yerə enib. Beləliklə, o, 371 gün kosmosda qalan ilk amerikalı astronavtdır. Bununla bərabər, Rubio mərhum rusiyalı kosmonavt Valeri Polyakovun kosmosda ən çox qalma üzrə rekordunu təzələyə bilməyib. Xatırladaq ki, V.Polyakov 1994-1995-ci illər ərzində "Mir" stansiyasında 437 gün kosmosda olub.

## "Bərk gedən" ulduzlar

***Ötən ilin iyulunda "Gaia" Avropa Kosmik Agentliyi tərəfindən bizim qalaktikadakı ən sürətli 6 ulduz müəyyən edilib. Onlardan ikisinin – J0927-6335 və Jİ 235-3752-nin xüsusilə sürətli olduğu meydana çıxıb.***



Birinci ulduz saniyədə 2285 kilometr hərəkət edir. Bunun nə qədər yüksək sürət olduğunu təsəvvür etmək üçün qeyd edək ki, həmin ulduz təkcə bir saata Yer kürəsinin ətrafında 694 dəfə dövrə vura bilər. Demək istəyirik ki, Yerdə olduğu kimi, qalaktikada da "bərk gedən oğlanlar", yəni, çox sürətli ulduzlar var.

## Ən ağır qara dəlik

***Bəlli olduğu kimi, yüksək modern Ceyms Uebb kosmik teleskopu son illər vaxtaşırı olaraq yeni astronomik rekordlar müəyyən edir. Bu mənada 2023-cü il də istisna olmayıb. Belə ki, alimlər ötən il ən uzaq qalaktikada ən ağır kütləli qara dəlik aşkar ediblər.***



Təqribən, 13,3 milyard yaşı olan qara dəlik CEERS 1019 qalaktikasında yerləşir. Onun kütləsi Günəşin çəkisindən 9 milyon dəfə çoxdur. Yaxud bizim qalaktikadakı Süd yolundakı məlum qara dəlikdən iki dəfə ağırdır.

*M.HACIXANLI*
*XQ*

# "Ozan"ın oxucularla yeni görüşü

***Bu günlərdə Azərbaycan Aşıqlar Birliyinin (AAB) "Ozan" elm və sənət toplusunun yeni nömrəsi çapdan çıxıb. Qeyd etmək lazımdır ki, ölkəmizdə ölməz aşıq sənətinin geniş tədqiq olunmasına və inkişafına daim diqqət və qayğı göstərilir. Təsadüfi deyil ki, nəşrin son nömrəsində də bununla bağlı çox sayda fikir və rəylər yer alıb.***




Topluda eləcə də AAB-nin sədri, professor Məhərrəm Qasımlının anadan olmasının 65 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyinin təbrik məktubu, Musa Nəbioğlunun "Alim, şair və ozan ömrünün yetkinlik zirvəsi" və ədəbiyyatşünas alim Qurban Bayramovun "Orxan Paşanın şeiri, qoşa qanadın sehri..." adlı məqalələri dərc olunub.

Bundan başqa, topluda professor Məhərrəm Qasımlının "Usta gözünün saz nuru", Musa Nəbioğlunun "Sazbəndlik sənəti" və "Ustadlar ustadı Sadıq Sultanov", Qəndab Əliyevanın "XIX-XX əsrlər Güney aşıqlığından üç ustad: Balovlu Miskin, Miskin Əsəd və Hüseyn Cavan", Fəridə Kazımovanın "Kitabi-Dədə Qorqud" dastanında epik ifadələrin folklor semantikası", Qüdrət Umudlunun "Şirvanın ünlü sənətkarı", Leyla Məmmədovanın "Nənəmin xalçası: ilmələr bizə nə deyir?", Həzi Həsənlinin "Könül, dolan bu dağları" və "Meydanda mərdi-mərdanə" adlı elmi və elmi-publisistik məqalələri, ustad aşıqlardan Sadıq Sultanov və Məmmədağa Babayevin şeirləri təqdim olunub.

*R.QURBANLI*
*XQ*

**Hava**




***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən yanvarın 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, gecəyə doğru arabir güclənəcək. Gecə 4-6°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi dağlıq ərazilərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, axşama doğru bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 14-19° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

**Sağlamlıq**

# Yarma – xərçəngdən qoruma

***ABŞ Milli Xərçəng Araşdırma Mərkəzinin ekspertləri 20 illik tədqiqatın nəticələrini paylaşıblar. 400 könüllü üzərində aparılan araşdırmada hansı sıyığın xərçəng əleyhinə təsir etdiyi öyrənilib.***



Bütün iştirakçılar 20 il ərzində müxtəlif vaxtlarda səhərlər nə yediklərini və özlərini necə hiss etdiklərini bildiriblər. Aydın olub ki, səhərlər sıyıq yeməyi sevənlərdə xəstəliklərə qarşı müqavimət, davamlılıq daha çoxdur. Həmin adamlar xərçəngə daha az tutulur və daha uzun ömür sürürlər.

Hər gün 20 qram yarma yeyənlərdə erkən ölüm riski 20–30 faiz azalıb.

Eyni tip 20 digər araşdırma ilə müəyyən edilib ki, toxum, yarma və buğdadan çox istifadə edənlər, mədə və qida borusu xərçənginə daha az tutulurlar.

Ən faydalı sıyıqlar tam taxıl yarmaları, qarabaşaq, yulaf, qəhvəyi yabanı düyüdən hazırlananlardır. Amma duru mannı sıyığları yalnız mədə əməliyyatı keçirən və müəyyən səbəblərdən yarmalı sıyıq yeyə bilməyənlərə, qidaya uyğundur.

Tədqiqatçılar müəyyən ediblər ki:

Ürək-damar xəstəlikləri – buğda, sünbül sıyığı;

Qanazlığı, qaraciyər probleminə – qarabaşaq sıyığı;

Bağırsaq probleminə – qarğıdalı sıyığı daha faydalıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

*✓ 2021-ci il mayın 17-də Daxili İşlər Nazirliyi tərəfindən Kənan Zayıdağa oğlu Hüseynovun adına verilmiş C 03633983 nömrəli xarici pasport itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3083
SİFARİŞ 46
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00